

## İlham Əliyev Azərbaycan gənclərini təbrik etdi

Prezident İlham Əliyev 2 fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərini təbrik edib. "Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Sizi 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə...

Səh.3


# UNİKAL

№05 (2139) 3 fevral 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Səfər Mehdiyevin kadrları təşviş içərisində



## Ölkəmizə qarşı cənubdan gələn açıq təhlükənin gizlinləri

Səh.9

## Dövlət Gömrük Komitəsində "təmizləmə"lər davam etdiriləcək

Ötən həftə Dövlət Gömrük Komitəsində növbəti korrupsiya əməliyyatı keçirildi. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan əməliyyat komitənin Aksizli mallar İdarəsində baş tutub. Bu barədə rəsmi açıqlamada bildirilib ki, adıçəkilən idarənin Gömrük dəyərləndirilməsi və risklərin idarə olunması şöbəsinin əməkdaşı Şahin İskəndərovun ölkəyə gətirilmiş avtomobillərə görə ödəniləcək rüsum və digər xərclərin azaldılması müqabilində rüşvət almasına əsaslı...

Səh.5

## "Molla ağlı ilə idarə olunan dövlət həmişə yanlışların içərisində olmalıdır"



Milli Məclisin Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumundan, İran-Azərbaycan münasibətlərinin gələcəyindən, ölkəmizin İranda səfirliyinin nə zaman bərpa oluna biləcəyindən və başqa məsələlərdən danışıb.

Səh.4

## Azərbaycan hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafında mühüm yol keçib



Azərbaycanda hüquqi dövlət qurulmasında ümumilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" dövlətimizi rəsmi olaraq 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olan Azərbaycan Demokratik Respublikasının varisi və müstəqil respublika elan edibdir.

Səh.11

## Elmar Məmmədyarovun gülünc iddiası



Bu günlərdə sabiq xarici işlər naziri Elmar Məmmədyarovun APA Tv-yə müsahibəsində "tapşırıqla XİN-də işə adam götürmüşəm" fikirləri geniş rezonans doğurmuşdu. "Azərbaycan böyük ölkə deyil, bir ailə kimidir. Mümkün olmayan şeydir ki, kiminsə oğlu, nəvəsi işə düzəlməsin. Kimi soruşsanız, görəcəksiniz.

Səh.8

# Natavanla barışan Səidədən ilk açıqlama






***"Tənqid olmalıdır da. Olmasa, maraqsız olar. Nəticədə bəyənən çox olubsa, deməli alınıb".***

Bu sözləri Axşam.az-a açıqlamasında müğənni Səidə Sultan deyib. O, tez-tez tənqidlərə tuş gəlməsini normal qarşıladığını etiraf edib: "Tənqidsiz artıq heç nə maraqlı deyil. Adi klip çıxarırsan danışılmır, heç kəsin vecinə olmur. Onun içində tənqid də, tərif də olmalıdır".

Müğənni Natavan Həbibi ilə barışmalarına münasibət bildirən Səidə fikrini bir cümlə ilə tamamlayıb: "O mənim doğmamdır".

Qeyd edək ki, Səidə Natavan haqqında "Əvvəl dəstək idi, sonra zay oldu. Üzümə dedi ki, niyə beləsən. Çox sözlər dedi, ondan sonra son qoydum. Allah onu xoşbəxt eləsin. Sənətdə rəqib olaq. Çıx da bu aləmdən, ancaq özünə qulaq asır. Bir yerdə ola bilmərik. Gözəl musiqiçidir, savadı var. Amma özü, ancaq "mən-mən" deyir. Gözümü açandan Natavanın yanında çox olurdum. Sərbəstliyi onda gördüm. Bəzən mən onu, bəzən o məni qoruyurdu. Yaşım az idi, indi öz yerimdəyəm. Natavan da deyir, niyə əvvəlki kimi deyilsən?" sözlərini söyləmişdi. O, növbəti açıqlamalarının birində isə N.Həbibinin ünvanına "İfritədir" sözünü söyləyib.

# Həyat yoldaşı Tünzalənin xəstəliyindən yazdı

***Mərhum Əməkdar artist Tünzalə Əliyevanın həyat yoldaşı Röyal onun onkoloji xəstəliklə mübarizə apardığı yoldan yazıb.***

Bu barədə o sosial media hesabında paylaşım edib. "İlk dəfə öyrənəndə ki, artıq gözəl, nur üzlü həyat yoldaşımda xərçəng var, o dərhal Qənirə Paşayevaya zəng edib bu xəstəliyin daşıyıcısı olduğunu dedi. O, "sabah gedin Milli Onkologiya Mərkəzinə, sizi qarşılayacaqlar" dedi. Sabahı gün həyat yoldaşım oraya yollandı. Akademik Cəmil Əliyev özü şəxsən zəng edərək hər şeyi tam təmənnasız olması üçün tapşırıq vermişdi. İlk əməliyyat vaxtı təyin olundu. Gözəl insan, cərrah Şəmistan həkim əməliyyat etdi və uğurlu oldu. Bu, bizim xəstəliklə tanış olduğumuz 1-ci hissə idi.

İkinci hissə, törəmələr olduqda isə həyatımıza Elçin Mansurov girdi. O, sadəcə işinin peşəkarı deyildi, həm də həyat yoldaşımla ata-övlad münasibətində idilər. Və adını bilmədiyim neçə həkim, tibb bacıları, qapıda duran nəzarətçilər...

4 il, tam 4 il bir manat belə xərcləmədik! Amma tək gerçək var ki, Quranda yazıldığı kimi "Ya Rəsulum döyüşdən qaçanlara de ki, mənim onlara əvvəldən yazdığım ölüm günündən nə bir gün çox yaşayar, nə də ki, bir gün gec ölərlər"



Və artıq həyat yoldaşım, nur üzlü xanım televiziyada işləmirdi. İrəvan Dövlət Azərbaycan Dram Teatrının rəhbəri İftixar Piriyev onu işə qəbul etdi. Mənim nur üzlü həyat yoldaşım əvvəllər də onunla işləyib. Hətta Ulu Öndər Heydər Əliyev "Əməkdar artist" adına layiq görmüşdü.

Və əlbəttə ki, Dilarə (Əməkdar artist Dilarə Əliyeva - red.) onunla işləməyə başladılar və həyat yoldaşıma çox dəstək oldu. Son anlarda bizimlə bir əziyyət çəkən Yusif Mustafayev, Ülviyyə Əliyeva, Dilşad xanım və adlarını unutduğum o insanlardan üzr istəyirəm. Bütün bu olan hadisələri deməyi özümə borc bildim. Başda cənab Prezident İlham Əliyev olmaqla adlarını çəkdiyim hər kəsdən Allah razı olsun" deyə, o, paylaşımında yazıb.

Qeyd edək ki, T.Əliyeva uzun sürən xərçəng xəstəliyindən dünyasını dəyişib. Onun Zəhra adlı qız övladı var.



# "Aygün Kazımovanın dayandığı yer səhnə sayılır"

***"Şou-biznesin yaranması elə Aygün Kazımovanın doğulduğu gündür. Onun konsertləri, açıqlamaları, söz atmaları hamısı şou-biznesinin ahəng qanununa tabe idi. Amma o, özü heç bir qanuna tabe deyildi, çünki onları özü yazırdı. Artıq iş o yerə çatmışdı ki, Aygünün dayandığı nöqtə səhnə sayılırdı. Hamı tərəfindən sayılırdı, elə ona görə də hər tərəfdən xəndəklər qazılırdı, bostanına daş, efirlərdən söz atılırdı. 3 nəfər bir yerə yığışırdısa Aygündən danışılırdı".***

Bu sözləri Əməkdar artist Dilarə Əliyeva "Söhbət var" verilişində qonaq olan Xalq artisti Aygün Kazımovaya deyib. "İlk dəfə fanat ordusunu Aygün yaratdı. Səhnədə performansı o yaratdı, cəsarətli geyimləri geyindi, konsertindəki izdihamı ilə öyündü, hər ilki o etdi, elə ona görə də onunla yarışa bilməyənlər ona qısqanclıq, paxıllıq etməyə, yolunu başlamağa, bacarmayanda kənara çəkilib hönkür-hönkür ağlamağa başladılar. Aygün o Aygün oldu ki, hər addımı hadisə, hər layihəsi "şamplena", hər sözü xəbər başlığı, hər səhnə üçün riski can sağlığı idi. Aygün Kazımava həm dünəndir, həm bu gündür, həm sabahdır, həm keçmişdir, həm gələcəkdir. Onun döndüyü yollara dönmə işarəsi, gözlədiyi yerlərdə işıqforlara qırmızı işıq, tapdalamadığı dəyərlərə qoşa xətlər, sürətlə getdiyi yollara radar qoyuldu. Səhnədə harada dayandısa, ora güllər qoyuldu" deyə, Dilarə sözlərinə əlavə edib.

# Meyxanaçının səhhətində problem yaranıb

***Meyxanaçı Rüfət Nasosnunun səhhətində problem yaranıb.***



Bu barədə sənətçi "Həmin Zaur" verilişində danışıb: "Ağciyərlərim ağrıyır. Bu yaxınlarda MRT-də (Maqnit rezonans tomoqrafiya) olmuşam. Müəyyən problemlər yaranıb. Altıncı mərtəbədə yaşayıram. Lift işləməsə, evə getmirəm. Zəng edirəm ki, gəlib düzəltsinlər. Pilləkənləri düşürəm, amma qalxa bilmirəm".

# Türkan Şorayın qızı evlənir

***"Yeşilçam" ulduzu Türkan Şorayın aktrisa qızı Yağmur Ünal ailə həyatı qurur.***

"Unikal" xəbər verir ki, aktrisa iş adamı İzi Kərimoğlu ilə nikah masasına əyləşəcək. Bildirilir ki, cütlük toy hazırlığına artıq start verib.



# Depozitlərə görə vergi ödəməkdən imtina edə bilərik?

***Məlumdur ki, banklarda olan əmanətlər 2016-cı il fevralın 1-dən etibarən yeddi il müddətində vergidən azad edilmişdi, ancaq bu müddət dünən başa çatdı.***

Məsələ ilə bağlı vətəndaşları maraqlandıran əsas suallardan biri budur ki, öncədən banka qoyulan vəsaitlər də vergiyə cəlb olunurmu? Əvvəlki illərdə banka depozit yerləşdirən müştəri bağlanan müqavilə şərtlərinə görə məhkəmə yolu ilə vergi ödəməkdən imtina edə bilərmi?

Bunula bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, yalnız fevralın 1-dən sonra əldə edilən gəlirlər vergiyə cəlb olunur: "Burada illik gəlirlərdən söhbət gedir. İlin yekununda fevralın 1-dən sonrakı hissəyə vergi tətbiq olunacaq. Əvvəlki dövrlərdə əldə edilən gəlirlər vergiyə cəlb olunmur". Deputatın sözlərinə görə, vətəndaşlar öncədən qoyulan depozitlərlə bağlı məhkəməyə müraciət edə bilməz. Çünki müqavilənin depozitlə bağlı hissəsində Vergi Məcəlləsinə istinad var: "Müqavilədə depozitlərin bütün hallarda vergidən azad olunması ilə bağlı qeyd yoxdur. Banklar müqaviləni Vergi Məcəlləsinə uyğunlaşdırdığına və məcəllə daha üst qanun olduğuna görə onun tələblərinə uyğun olaraq vergiqoyma prinsipləri ilə tənzimlənir".

# Mikayıl Cabbarov Andrey Spınu ilə görüşdü

***İqtisadiyyat naziri Mikayıl Cabbarov Moldova Respublikasının Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Andrey Spınu ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə nazir "Facebook" səhifəsində paylaşım edib. O bildirib ki, Andrey Spınu ilə ölkələrimizin iqtisadi əlaqələrinin inkişaf perspektivləri dəyərləndirilib.

# "Azərbaycan özünə məxsus olan torpaqları geri qaytarıb" - Lavrov

***"Qarabağ müharibəsinin tarixi onilliklərə dayanır. Uzun illər Ermənistan Azərbaycanın 7 rayonunu işğal edib. Rusiya məsələnin diplomatik yolla həlli üçün çoxsaylı variantlar təklif etsə də, Ermənistan rəhbərliyi əraziləri öz əlində saxlamaq istəyirdi. Azərbaycan özünə məxsus olan torpaqları geri qaytarıb".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov yerli KİV-ə danışıb. "Bəli, Azərbaycan ona məxsus torpaqları qaytarıb. İndi həm Ermənistan, həm də Azərbaycan sülh sazişi bağlamağa hazır olduqları barədə sənəd imzalayıblar. Burada vəziyyət çoxşaxəlidir", - Lavrov bildirib.

***Gülayə Mecid***

# Şuşa bu şəhərlə qardaşlaşa bilər

***Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin 11-12 oktyabr tarixlərində Qırğızıstana dövlət səfəri zamanı qeyd olunan Dostluq parkının, Heydər Əliyev və Nizami Gəncəvi adına məktəblərin açılışı olub. Həmçinin ölkələrimizin paytaxtları arasında qardaşlaşma əlaqələrinin yaradılması haqqında saziş də imzalanıb.***

Bunu müsahibəsində Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev deyib. Hazırda Qırğızıstanın Oş şəhəri ilə Azərbaycanın Gəncə şəhəri, Karakol şəhəri ilə Qəbələ şəhəri, Razzakov şəhəri və Şuşa şəhəri arasında qardaşlaşmış şəhər əlaqələrinin yaradılması məsələsi ətrafında müzakirələr aparılır.

# İran səfiri Estoniya XİN-ə çağırıldı

***Estoniya Xarici İşlər Nazirliyi İranın səfirini çağıraraq Tehranın Rusiyanın Ukrayna ərazisinə hücumunu və İranda insan haqlarının əhəmiyyətli dərəcədə pozulmasını dəstəkləməsini kəskin pislədiyini bildirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Estoniya birmənalı şəkildə Rusiyanın Ukraynaya qarşı hücumuna verdiyi hər hansı dəstəyi, o cümlədən İranın Rusiyaya hücum pilotsuz təyyarələri vermək qərarını pisləyir.

"Hücum pilotsuz uçan aparatlarının istifadəsi çoxsaylı mülki əhalinin ölümü və Ukraynanın infrastrukturuna böyük ziyan vurması ilə nəticələnib. Estoniya İran hökumətini bu əsassız hücuma hər cür dəstəyi tamamilə dayandırmağa çağırır", - deyə xarici siyasət idarəsinin rəhbəri Reinsalu bildirib. Estoniya Xarici İşlər Nazirliyi həmçinin İran vətəndaşlarının və sakinlərinin edam edilməsini və "yüzlərlə insanın ölümünə səbəb olan" zorakılıq dalğasını da pisləyib.

***Gülayə Mecid***

# Elmar Məmmədyarovun gülünc iddiası

## 30 minlik maaşla milyonlarla dollarlıq mülklər alan sabiq nazirin səmimiyyətinə inanmaq olarmı?

***Bu günlərdə sabiq xarici işlər naziri Elmar Məmmədyarovun APA Tv-yə müsahibəsində "tapşırıqla XİN-də işə adam götürmüşəm" fikirləri geniş rezonans doğurmuşdu.***

"Azərbaycan böyük ölkə deyil, bir ailə kimidir. Mümkün olmayan şeydir ki, kiminsə oğlu, nəvəsi işə düzəlməsin. Kimi soruşsanız, görəcəksiniz. Bu, təbii məsələdir. Özü də pis uşaqlar deyil, hamısı savadlıdır. Deməzdim ki, XİN-də bütün kollektiv qohumluğa görə işə qəbul olunub" deyə Məmmədyarov bildirmiş, buna görə də haqlı olaraq sabiq nazir sərt tənqidlərə tuş gəlmişdi.

Cəmiyyətin kəskin reaksiyaları qarşısında isə XİN-in sabiq başçısı geri addım atmaq məcburiyyətində qalmış, bu sözlərini özünəməxsus qaydalar qoyduğunu etiraf eləmişdi.

Lakin dərindən incələdikdə Elmar müəllimin öncəki açıqlamasını "malalama" cəhdini də fiasko kimi dəyərləndirmək olar. Əvvəla, eks-nazir bir daha etiraf edir ki, testdən kənar işə qəbullarda müəyyən məmurlara yaxın şəxslərə üstünlük verilib! Əlbəttə, hansısa məmurun adamı olması kimsənin savadsız və ya bacarıqsız olması anlamına gəlmir. Ancaq bu ölkədə bacarıqlı, savadlı kifayət qədər şəxs var ki, hansısa vəzifəli şəxslə yaxınlığı yoxdur. İndi onlar neyləməlidirlər? Məmmədyarovun məntiqinə görə, belələri karyera qapılarının üzlərinə açılması üçün oturub gözləməlidirlər, ya da yalnız test imtahanlarına bel bağlamalıdırlar? Ümumiyyətlə, hansısa məmurun bütün qohum-əqrəbasının savadlı, qabiliyyətli olması nə qədər məntiqlidir? Bunu ona görə yazmaq ehtiyacı hiss eləyirik ki, bizim reallıqda hər hansı vəzifəli şəxsin birinci, ikinci dərəcəli yaxınlarının işsiz, daha doğrusu, vəzifəsiz qaldığı hələ görünməyib...



İkincisi, Məmmədyarov ilk açıqlamasını malalamaq məqsədilə verdiyi ikinci açıqlamada başqa bir ilginc detala diqqət çəkib: "Həmişə deyirlər ki, kim Xarici İşlər Nazirliyinə işə düzəlibsə, salamat adam deyil, savadsızdır".

Elmar müəllimdən soruşmaq istəyirik ki, axı niyə məhz onun nazir olduğu dövrdə XİN-lə bağlı belə təəssürat yaranmışdı? Görəsən, sabiq nazir bu barədə heç düşünübmü? Əgər həmin təəssüratda həqiqət payı olmasaydı, XİN kimi dövlətin ən strateji nazirliklərindən birində DTX-nin antikorrupsiya əməliyyatı aparmasına ehtiyac qalardımı? Ortaya diplomatiya idarəsinin adına yaraşmayan rüşvət, korrupsiya faktları ortaya çıxardımı? Ən əsası, Azərbaycan üçün taleyüklü məqamlardan birində işə çıxmayan, "evdən işləməyə" üstünlük verən Məmmədyarovun özünün belə XİN başçısı postu üçün yarıtmaz kadr olduğu təsdiqlənmişkən eks-nazir hansı məntiqlə barəsindəki mənfi fikirlərə etiraz eləyir?

Nəhayət, üçüncüsü: Elman müəllimin hələ vəzifədə ikən oğlu Eminin adına ABŞ-da, Nyu-Yorkun bahalı hissələrindən birində 4,2 mln. dollardan bir qədər çox nağd pul ödəməklə iki mənzil aldığı ortaya çıxmışdı.

malalamağa çalışmışdı. Demişdi ki, onu düzgün başa düşməyiblər. Sitat: "Kadrlar imtahan sistemi ilə işə qəbul olunublar, Məleykə Abbaszadədən də soruşa bilərsiniz. Dövlət İmtahan Mərkəzi ilə birlikdə suallları hazırlayır, XİN-nin Kadrlar idarəsi ilə birgə test sistemi ilə imtahan keçirirdik... Məni məəttəl qoyan məsələ budur ki, kimsə testdən keçirsə, deyirlər ki, bu, filan məmurun adamıdır. Nə olar, məmurun adamı olanda pis adam olmalıdır? ... Savadı, biliyi varsa, nəyə görə işə götürməyək?"

Lakin artıq gec idi, necə deyərlər, "qatar getmişdi". Məmmədyarov, Anadolu türkləri demişkən, "dilinin altındakı paxlavanı" çıxarmış, XİN-ə rəhbərliyi dövründə işə qəbul zamanı

Sabiq nazir bunu "şəxsi işi" kimi ört-basdır eləmək istəmişdi. Halbuki illik maaşı təxminən 30 min manat olan bir məmurun ilk borcu 4,2 mln. dolları haradan, necə əldə etdiyinə aydınlıq gətirmək idi. Hərçənd, XİN-dəki antikorrupsiya əməliyyatından sonra hər şey gün işığına çıxdı - Məmmədyarov yaratdığı korrupsiya mexanizmi ilə Nyu-Yorkda nəinki, hətta 22 mənzil də ala bilərmiş. İndi bunu ona görə xatırladırıq ki, illik 30 min manat maaşla milyon dollarlıq mülk sahibi olan bir şəxsin sonra da çıxıb cəmiyyəti nazir olduğu dövrdə hər işi qanunlara uyğun, ədaləti gördüyünə inandırmaq istəməsi yalnız gülüş doğura bilər, başqa heç nə!

***Toğrul Əliyev***

# Ölkəmizə qarşı cənubdan gələn açıq təhlükənin gizlinləri



***44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra İran Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı aqressiya nümayiş etdirir. İlk vaxtlar bunu müxtəlif din xadimləri və ictimai-siyasi şəxslər səviyyəsində həyata keçirirdisə, sonradan bu aqressiya dövlət rəsmiləri müstəvisinə keçdi.***

İranın erməni separatizminə dəstək verməsi, sərhədlərimizdə hərbi təlimlər keçirməsi və Azərbaycanın müstəqilliyinə təhdid mesajları verməsi "torbada" pişikdən də bəd bir şey olduğunu düşünməyə əsas verdi. Tehrandakı səfirliyimizə edilən terror hücumundan sonra isə kartlar açıldı.

Qeyd edək ki, Prezident İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən Azərbaycanın Tehrandakı səfirliyinin binasında törədilən terrorla bağlı yeni detalları açıqlayıb. Prezident hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırıb. Dövlət başçısı vurğulayıb ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

Məsələ ilə bağlı fikirlərini "Unikal"la bölüşən sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib ki, Azərbaycanın Tehrandakı səfirliyinə hücum terror aktı idi. Onun sözlərinə görə, artıq terror aktı ilə əlaqədar cinayət işi başlanıb və hər şey istintaqın necə aparılacağından asılıdır: "Azərbaycan tərəfi də cinayət işi açıb. Bildiyim qədərilə, azərbaycanlı müstəntiqlər İran tərəfi ilə əlaqədədirlər. İran hökümətindən çox şey asılıdır. Onlar istintaqın gedişi və nəticələri ilə bağlı Azərbaycan tərəfini məlumatlandırmalıdırlar. Əlbəttə ki, bu, bir günün işi deyil. Biz bu məsələyə tam ciddi yanaşmalıyıq. Bizim onların apardığı istintaqın nəticələrinə güvənib-güvənməyəcəyimiz məsələsinə gəlincə, əvvəl biz gərək öyrənək ki, onlar hansı faktları toplayıb bizə təqdim edəcəklər. Onlara inanıb-inanmayacağımız da istintaqın bir mövzusudur. İlk növbədə gərək aydınlaşdırılsın ki, bu terror aktının arxasında hansı qüvvələr dayanır. Cürbəcür versiyalar ola bilər", - deyə o bildirib.

Xalq artisti Nurəddin Mehdixanlı "Unikal"a açıqlamasında deyib ki, bu gün İranda 40 milyon azərbaycanlı yaşayır, amma İran dövləti bu tayda olan 10 milyonluq Azərbaycan xalqının haqqını, hüququnu tanımır və ona hörmət eləmir. Onun sözlərinə görə, İran dövləti Azərbaycanın torpaqlarının işğal altında olduğu dövrdə bir dəfə də olsun səsini çıxarmayıb: "Azərbaycan öz torpaqlarını azad edəndə İran xofa düşdü və gedib Ermənistanın yanında dayandı. O zaman İran mənim necə şiə qardaşım ola bilər? Belə olan halda necə özlərini bütün müsəlmanların rəhbəri hesab edə bilərlər? Bir nəfər deyə bilərmi ki, 30 il ərzində İran ərazisində bir erməninin burnu qanayıb? Həmin müddət ərzində İranda azərbaycanlılara qarşı çox sayda məhkəmə işləri olub. Bizim iş adamlarının hüquqları tapdalanıb, mülkləri əlindən alınıb və əliboş bu tərəfə göndəriliblər. Bir sözlə, İranda azərbaycanlılara qarşı xəyanət elementləri çoxdur. Son nəticədə isə açıq-aşkar bizim səfirliyimizə hücum etdilər və vətəndaşımız şəhid etdilər. Dövlətimizin bütün orqanları bilirdilər ki, İkinci Qarabağ müharibəsində İran ordusu kəşfiyyat məlumatlarını Ermənistana ötürüb və onlara yardımçı olub. Biz bu məsələləri dövlət olaraq dilə gətirmək istəmirdik. Baxmayaraq ki, İran Ermənistana silah-sursat da göndərirdi. Yəni, İran dövləti türk düşmənçiliyinə yönəlmiş siyasət yeridir. Onlar 30 il ərzində Qarabağın sökülüb-dağıdılması prosesində də iştirak ediblər. Məsələ artıq gəlib o yerə çatıb ki, İran prezidenti, millət vəkilləri və ordu komandanları Azərbaycanı və Naxçıvanı işğalla hədələyirlər, amma onlar bunu edə bilməzlər. Ona görə ki, Azərbaycan artıq 20 il əvvəlki Azərbaycan deyil. Biz cənubdakı 40 milyon azərbaycanlının haqlarını qorumaq üçün ölməyə və öldürməyə hazırıq. Güney azərbaycanlılar mütləq öz istiqlalına qovuşacaqlar. İran bizdən qorxsun, bizim qorxacaq bir şeyimiz yoxdur. Onlar bizim üzərimizə silahla gəlirlər, amma biz onları əliyalın tərk-silah etməyə qadir olan türk millətinin övladlarıyıq. Biz heç kimi hədələmirik. Sadəcə olaraq, haqq və hüquqlarımızı tələb edirik", - deyə o qeyd edib.

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu isə bildirib ki, Azərbaycanın İrandakı səfirliyinə xain hücum cəmiyyətdə narahatlıq yaratmaqla yanaşı əsaslı şübhələr də yaratdı. Onun sözlərinə görə, ölkəmizdə ümumi rəy ondan ibarətdir ki, İran diplomatik nümayəndəliyin təhlükəsizliyini yüksək səviyyədə təmin etməyib: "Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının müvafiq maddələrində dövlətlərin öz ərazilərindəki diplomatik nümayəndəliyin təhlükəsizliyinə cavabdeh olması məsələsi aydın şəkildə təsbit olunub. Deməli, İran beynəlxalq hüququ kobud şəkildə pozub".

E.Mirbəşiroğlu deyib ki, İran hüquq mühafizə və təhlükəsizlik orqanları fəaliyyətsizlik nümayiş etdiriblər: "Yəni hadisədən öncə və hadisə anında terrorun olacağı aydın idi. Bu terrordan öncə Azərbaycan səfirliyinə qarşı təxribat olub, erməni terrorçunun şəkili səfirliyin binasından asılıb və sosial mediada anti-Azərbaycan çağırışları edilib. İran təhlükəsizlik orqanları bu hadisənin qarşısını alması üçün bütün imkanları olub. Səfirliyin qarşısında olan mühafizə köşkündə olan polis də terrorun qarşısını almaq üçün müqavimət göstərmir. Ona görə də bu hadisənin terror olması ilə bağlı Azərbaycan cəmiyyətində əsaslı rəy var. Bu hadisənin motivləri əsasında terrorun arxasında dayanan daha ciddi qüvvələrin ortaya çıxması ehtimalı kifayət qədər realdır".

Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov isə bildirib ki, İran Azərbaycanda İslam dövləti yaratmaq istəyirdi. Onun sözlərinə görə, Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox ölkələrin diqqətində idi: "Bu dövlətlərdən biri də İran idi. İran ona qədər də İslam inqilabının "naliyyətlərini" müsəlman ölkələrinə yaymaqla məşğul idi. Bizim əhalinin əksəriyyəti müsəlman adətilə yaşayan insanlardan ibarətdir. Ölkəmizdə bütün dinlərə və dinlərin daşıyıcılarına bərabərhüquqlu münasibət yaradılıb. O cümlədən, İslam dinindəki bütün məzhəblərə, cərəyanlara itaət edən insanlara da eyni münasibət bəslənir. Azərbaycanda heç bir məzhəbçilik siyasəti yoxdur. İranın Ermənistana dəstək verməsinə də toxunan sədr müavini bildirib ki, İran bu köməklikləri göstərməsəydi düşmən çoxdan sülhə razılaşardı".

"Bu gün də Ermənistanın revanşist fikirlərində İranın dəstəyi öz rolunu göstərir. Azərbaycan müstəqilliyinini bərpa etdikdən sonra İran tərəfindən ölkəmizə geniş fəaliyyətə start verildi. Bu fəaliyyət İslam inqilabının ölkəmizə ixrac edilməsi Azərbaycanda da iransayağı İslam dövlətinin qurulması onların əsas məsələsi oldu. Bundan sonra geniş fəaliyyət başlandı. Bu fəaliyyəti biz artıq 1990-cı illərin əvvəllərindən müşahidə etməyə başladıq. Həmin dövrdə bizim minlərlə vətəndaşımız təhsil adı altında İrana cəlb edirdilər. Əlbəttə bunların çoxu qaçaq yollarla gedirdi. Bundan başqa turist kimi, ziyarətə gedənlər də var idi ki, İranda qalırdılar. Bu təhsil alanlar isə dini deyil, dini ideoloji təhsil idi. Eyni zamanda İranda təhsil alanları Azərbaycanda islam inqilabı etmək üçün hazırlayırdılar. Biz orda təhsil alan tələbəblərlə söhbət edərkən məlum olurdu. Təbliğ edilirdi ki, Azərbaycanda yalnız İslam inqilabı olduqdan və İrana birləşdikdən sonra siz yaxşı həyat yaşayacaqsınız və erməni işğalına son qoyulacaq", - deyə S. Heydərov qeyd edib.

***M.İbrahimli***



# İlham Əliyev Laura Loxmanı qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı qəbul edib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirakına görə ABŞ nümayəndə heyətinə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı ötənilki toplantıda qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi baxımından yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Azərbaycan Prezidenti hazırda enerji diplomatiyamız qarşısında yeni vəzifə və tapşırıqların müəyyən edildiyini diqqətə çatdıraraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında səmərəli müzakirələrin aparılacağına əminliyin ifadə etdi.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin qoyduğu bünövrənin bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığını vurğuladı. Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid sektorunda, eləcə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bu xüsusda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş”in icrası üzrə Rəhbər Komitənin ilk iclasının da keçirilməsinin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev hər iki tədbirin bir-birini tamamladığını dedi.

Xanım Laura Loxman Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasının əhəmiyyətini vurğuladı və Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə Avropa ölkələrinin enerji təminatına əsaslı töhfələr verdiyini qeyd etdi.

Qonaq Cənub Qaz Dəhlizinin yaratdığı təməllər əsasında bərpaolunan enerji, o cümlədən yaşıl hidrogen sahəsində yeni əməkdaşlıq perspektivlərinin meydana çıxdığını qeyd etdi və bu layihələrin həyata keçirilməsində ölkəmizin vacib rol oynadığını bildirdi.

O, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması münasibətilə təbriklərini çatdırdı.

Görüşdə ABŞ-ın Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirildi və ABŞ-la Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

Söhbət zamanı nümayəndə heyəti ölkəmizin Tehrandakı səfirliyinə qarşı törədilmiş terror hadisəsi nəticəsində Azərbaycan vətəndaşının həlak olması ilə əlaqədar ABŞ-ın başsağlığını ifadə etdi.

# Baş nazir hökumət üzvlərinə tapşırıq verdi

***Baş nazir Əli Əsədov “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə” sərəncam imzalayıb.***



“Unikal” xəbər verir ki, sərəncama əsasən, Maliyyə Nazirliyi növbəti il üçün dövlət büdcəsinin ilkin layihəsini, həmçinin növbəti il və sonrakı üç il üçün icmal büdcənin proqnozunu və 2024-cü il və sonrakı üç il üçün Ortamüddətli xərclər çərçivəsi (OMXÇ) sənədinin ilkin layihəsini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi isə dövlət investisiya proqramının istiqamətlər üzrə ilkin layihəsini 2023-cü il aprel ayının 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına və aprel ayının 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidirlər.

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq Maliyyə Nazirliyi 2024-cü ilin və 2027-ci ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi və 2027-ci ilin sonuna hədəflənən dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi barədə təkliflərini, 2024-cü il və sonrakı üç il üçün büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri (“təhsil”, “kənd təsərrüfatı” və “ətraf mühitin mühafizəsi”) üzrə OMXÇ sənədinin layihəsini, habelə növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcəsinin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini, İqtisadiyyat Nazirliyi isə Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini 2023-cü il sentyabrın 1-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına, sentyabrın 15-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Dövlət Statistika Komitəsi:

- cari il üçün ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2022-ci ilin ilkin statistik məlumatlarını 2023-cü il fevralın 5-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməli;
- növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin hazırlanması üçün zəruri statistik məlumatların mütəmadi olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və digər aidiyyəti təşkilatlara təqdim edilməsini təmin etməlidir.

# Mehriban Əliyevadan "Gənclər Günü" ilə bağlı paylaşım

***Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi ”İnstagram” hesabında Gənclər Günü münasibətilə paylaşım edib.***

”Unikal” xəbər verir ki, paylaşımda deyilir: ”Qoy hər bir gəncimiz öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı hər zaman qürurlandırsın!”.






# Naxçıvan Universitetinə yeni rektor təyin edildi

***”Naxçıvan” Universitetinə yeni rektor təyin edilib.***

”Unikal” xəbər verir ki, əvvəllər Naxçıvan Dövlət Universitetində prorektor vəzifəsində çalışan Anar Kazımov ”Naxçıvan” Universiteti təsisçisinin qərarı ilə bu vəzifəyə gətirilib.

Yeni rektor bu gün kollektivə təqdim edilib. Dosent Anar Kazımov bu təyinatdan əvvəl Dövlət İqtisad Universitetində çalışırdı.

Universitetin sabiq rektoru Nurlana Əliyeva isə prorektor vəzifəsində universitetdəki fəaliyyətini davam etdirəcək.



Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Zakir Həsənov və Hulusi Akar təlimləri izlədi

***Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akarın dəvəti ilə qardaş ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ”Qış təlimi - 2023” beynəlxalq təlimi çərçivəsində “Yüksək Səviyyəli Müşahidəçi Günü”ndə iştirak edib.***

”Unikal” xəbər verir ki, əvvəlcə müdafiə nazirlərinə “Qış təlimi - 2023” təlimi barədə raport verilib. Ordu rəhbərləri yeni nəsil texnika və avadanlıqlarla tanış olub, təlimin maddi-texniki təminat hissəsinə baxış keçiriblər.



Sonra Azərbaycanla yanaşı iştirak edən digər 17 ölkənin hərbi qulluqçuları sərt iqlim və çətin relyef şəraitində müxtəlif epizodlar üzrə tapşırıqların icrasını nümayiş etdiriblər.

Yekunda Türkiyənin milli müdafiə naziri H.Akar, Azərbaycanın müdafiə naziri general-polkovnik Z.Həsənov, Gürcüstanın müdafiə naziri C.Burçuladze müşahidəçilər və digər rəsmi qonaqlar qarşısında çıxış ediblər.

Qeyd edək ki, cari ilin 18 yanvar - 03 fevral tarixlərində keçirilən təlimdə ölkəmizi təmsil edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq göstəriblər.

# İlham Əliyev Azərbaycan gənclərini təbrik etdi

***Prezident İlham Əliyev 2 fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərini təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Sizi 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə və gələcək işlərinizdə uğurlar arzulayıram. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərimizə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirildiyi günün ölkəmizdə 1997-ci ildən etibarən Gənclər Günü kimi qeyd olunması ənənəsi bir daha təsdiq edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin və insan kapitalının məqsədyönlü inkişafının əsas istiqamətlərindəndir. Ötən müddətdə apardığımız işlər gənclərin maraqlarının və ahəngdar inkişafının təmin olunması üçün lazımi şərait yaradılmasını sürətləndirmiş, onların təşkilatlanmasında və ictimai-siyasi fəallığının artmasında əhəmiyyətli rol oynamışdır.



Göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda milli məfkurəyə sadiq və dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan bir nəsil yetişmişdir. Gənclərimiz bu gün həyatımızın bütün sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi gücünün, hərbi qüdrətinin artması və siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işində qüvvə və bacarığını əsirgəmir, zəngin mədəni irsimizin qorunub saxlanması və təbliği yolunda mühüm addımlar atırlar.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Əminəm ki, Azərbaycan gəncliyi tariximizin bu yeni dövründə də ölkəmizin gələcək inkişafına layiqli töhfələr verəcək, yeni-yeni nailiyyətləri ilə bizi sevindirəcəkdir".

# Kredit faizlərinin artımı sahibkarlara necə təsir edəcək? - AÇIQLAMA

***"Bankların kredit faizlərinin artacağını düşünmürəm. Kreditlərin faizləri kifayət qədər yüksəkdir".***

Bunu "Unikal"a açıqlamasında deputat Rüfət Quliyev deyib.

Onun sözlərinə görə, bank rəhbərləri kredit faizlərinin yüksək olmasının bu formada izah edirdilər ki, Mərkəzi Bankın uçot dərəcəsi, depozitin 10 faizi və onun üzərinə də bankın 2-3 faizini gəldikdə, vəsaitin maya dəyəri 18-19 faiz olur: "Ona görə də kreditlərin faizi belə yüksəkdir. Düşünürəm ki, kredit faizlərinin bundan yüksək olması mümkün deyil. Sahibkar həmin kreditlə heç bir iş görə bilməz. Bank kreditləri 13-15 faizlə verilsə, maliyyə bazarında sahibkarlar üçün əlçatan olacaq. Təbii ki, bu da yüksək faizlərdir. Amma nisbətən kömək edəcək".

***Anar Kəlbiyev***



# Tələbələr Qarabağ İqtisadi Rayonunda tikinti-quruculuq işlərinə cəlb olunacaqlar

***Fevralın 2-də Ağdam Konfrans Mərkəzində "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsi ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.***

"Unikal" xəbər verir ki, Memorandumu AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova və "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsinin icraçı direktoru Övsət Həmidov imzalayıblar.

Memorandumda AzMİU müəllimlərinin və tələbələrinin, universitetin Layihə İnstitutunun əməkdaşlarının Qarabağ iqtisadi rayonunun ərazisində böyükhəcmli tikinti-quruculuq layihələrinə cəlb olunması, AzMİU məzunları üçün karyera imkanları, birgə konfrans və simpoziumların təşkili, təcrübə mübadiləsi və digər məsələlər əks olunub.



AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova əməkdaşlığın hər iki qurum və ümumilikdə ölkəmiz üçün əhəmiyyətinə diqqət çəkərək qeyd edib ki, işğaldan azad olunan ərazilərdə aparılan tikinti-quruculuq işləri "Böyük Qayıdış"a inamı daha da artırıb. Rektor vurğulayıb ki, bəzi ölkələrin məsələyə ikili yanaşma sərgiləməsinə rəğmən Prezident İlham Əliyevin siyasi iradəsi və yüksək idarəetmə bacarığı ilə azad olunmuş ərazilərimiz sürətlə bərpa edilir.

"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsinin icraçı direktoru Övsət Həmidov hazırda icra edilən və nəzərdə tutulan layihələr haqqında danışaraq AzMİU ilə əməkdaşlığın önəminə toxunub. Xidmət rəhbəri qeyd edib ki, ölkənin memarlıq və tikinti sahəsi üzrə əsas ali təhsil müəssisəsi ilə əməkdaşlıq azad olunan ərazilərdə işlərin daha da sürətlə həyata keçirilməsinə imkan verəcək.

Daha sonra iki qurumun nümayəndə heyətinin də iştirakı ilə müzakirə təşkil olunub, memorandumda əks olunan istiqamətlər üzrə görüləcək işlər haqqında fikir mübadiləsi aparılıb.

# "Ermənistan Azərbaycanın sülh təklifinə müsbət yanaşmalıdır" - Zakir Həsənov

***Ermənistan Azərbaycanın sülh təklifinə müsbət yanaşmalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Qarsda keçirilən "Qış təlimi-2023"ün Yüksək səviyyəli müşahidəçi günündə bildirib.

Nazir azad edilmiş ərazilərin minalardan təmizləndiyini, yenidənqurma və bərpa prosesinin aparıldığını vurğulayıb.

"Biz Azərbaycan Ordusu üçün peşəkar kadrların hazırlanmasındakı dəstəyinə görə Türkiyəyə təşəkkür edirik. Türkiyənin son illər müdafiə sənayesindəki uğurları bizi sevindirir", - Zakir Həsənov vurğulayıb.

# Vilayət Eyvazov onu rəis təyin etdi

***Bərdə Rayon Polis Şöbəsində yeni təyinat olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, polis polkovnik-leytenantı Yusif Məhərrəmov Bərdə RPŞ-nin İstintaq Bölməsinin rəisi təyin olunub.

***Həsən Adıgözəlov***



# ATƏT-də səfirliyimizə terror məsələsi qaldırılıb

***ATƏT Daimi Şurasının iclasında Tehrandakı Azərbaycan səfirliyinə silahlı hücum məsələsi qaldırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın ATƏT-dəki daimi nümayəndəsi Rövşən Sadıqbəyli bildirib.

İclasda ATƏT-in 52 nümayəndəsi iştirak edib/apa.

# Səbinə Əliyeva Bəxtiyar Hacıyevlə görüşdü



***Ombudsman Səbinə Əliyeva həbsdə olan ictimai fəal Bəxtiyar Hacıyevlə görüşüb.***

Bu barədə "Unikal"a Ombudsman Aparatının Mətbuat Xidmətindən məlumat verilib.

Qeyd olunub ki, Bəxtiyar Hacıyevin anası və onunla bağlı müraciət edən digər şəxslər Ombudsman Aparatında qəbul olunub. Eyni zamanda Bəxtiyar Hacıyev saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasında ombudsman Səbinə Əliyeva tərəfindən qəbul olunaraq müraciəti dinlənilib.

# Muxtar Babayev Devid Moranla görüşdü

***Azərbaycanda işgüzar səfərdə olan Böyük Britaniyanın İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının regional səfiri Devid Moranla ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində mövcud əməkdaşlıq istiqamətləri, iqlim dəyişmələri sahəsində qlobal səylərin vacibliyi məsələləri ətrafında fikir mübadiləsi aparılıb, gələcək perspektivlər müzakirə olunub.

# Adil Kərimli 3 əməkdaşı nöqsanlara görə işdən çıxardı

***Mədəniyyət Nazirliyi Mədəniyyət Elmi-Texniki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəylinin əmək fəaliyyəti zamanı aşkar olunan qanun pozuntuları ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verilib.***

Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyindən bildirilib. Bununla bağlı mədəniyyət naziri vəzifəsini müvəqqəti icra edən, nazirin birinci müavini Adil Kərimli müvafiq əmr imzalayıb.

Xatırladaq ki, S.Xələfbəylinin müavini və Mərkəzin şöbə müdiri də işdən çıxarılıb.



## Kamran Əliyev Sumqayıtın prokurorunu vəzifədən azad etdi

***Sumqayıtın prokuroru işdən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş Prokuror Kamran Əliyev əmr imzalayıb.

Əmrə əsasən, Sumqayıt şəhər prokuroru Müqəddəs Sultanov vəzifəsindən azad edilib.

Bildirilib ki, həmin vəzifənin icrası Sumqayıt şəhər prokurorunun müavini İsmayıl Abıyevə həvalə edilib.

## Zəngəzur dəhlizi hamının faydasına olacaq - Hulusi Akar

***"Zəngəzur dəhlizi hamının faydasına olacaq". "Unikal" xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.***

Nazir Türkiyənin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesini dəstəklədiyini vurğulayıb: "Zəngəzur dəhlizinin açılması hamını xeyrinədir və dəhlizin açılması bütün regiona sülh və sabitlik gətirəcək. Ölkələrin təhlükəsizliyi üçün biz bu layihəni tam şəkildə dəstəkləyirik".

## Böyük Qayıdışın icrası üçün tələb olunan vəsait açıqlanacaq

***Böyük Qayıdışa dair I Dövlət Proqramı üçün tələb olunan vəsait müəyyənləşdiriləcək.***

"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun bu gün imzaladığı "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə" sərəncamda əksini tapıb .

Sərəncama əsasən, İqtisadiyyat Nazirliyi 2024-cü il və sonrakı üç il üçün dövlət investisiya proqramının istiqamətləri, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" üzrə nəzərdə tutulmuş investisiya yönümlü layihə və tədbirlər üçün tələb olunan vəsaitə dair ilkin göstəriciləri 2023-cü il martın 1-dək, dəqiqləşdirilmiş göstəriciləri, həmçinin növbəti il üçün dövlət büdcəsinin layihəsinə uyğunlaşdırılmış dövlət investisiya proqramının istiqamətlər üzrə layihəsini 2023-cü il avqustun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməlidir.

Eyni zamanda, Azərbaycan Respublikasının aidiyyəti mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanları "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi ilə bağlı tələb olunan vəsaitə dair təkliflərini 2023-cü il fevralın 20-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməlidirlər.

# "Molla ağlı ilə idarə olunan dövlət həmişə yanlışların içərisində olmalıdır"

## Fazil Mustafa: "Səfirliyimizə olan hücumla İran bir daha terrorçu dövlət olduğunu təsdiqlədi"

***Milli Məclisin Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumundan, İran-Azərbaycan münasibətlərinin gələcəyindən, ölkəmizin İranda səfirliyinin nə zaman bərpa oluna biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Fazil müəllim, yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı silahlı terror hücumu olub. Terror aktı nəticəsində səfirliyin mühafizə xidmətinin rəhbəri Orxan Əsgərov şəhid olub və iki nəfər yaralanıb. İran tərəfinin hücumdan sonra tələm-tələsik açıqlama verərək hadisənin motivini təhrif etməyə cəhd göstərməsinin səbəbi nə idi?***

-Bu, qabaqcadan planlaşdırılan terror aktı idi. Hücumu ailə-məişət zəminində və başqa adla pərdələməyə çalışdılar, amma bunu bacarmadılar. Məlum oldu ki, terroru törədən şəxs əvvəllər SEPAH-da fəaliyyət göstərib. Hadisədən dərhal sonra tələm-tələsik açıqlama verən Tehranın polis rəisi hadisənin motivini təhrif etməyə cəhd göstərib. Yalandan bildirib ki, guya hadisəni törədən şəxs səfirliyə iki uşağı ilə gəlib, hücum ailə-məişət zəminində baş verib. Aydın oldu ki, bu, dövlətin içində terrorçu fəaliyyətlə məşğul olan bir qrupun həyata keçirdiyi aksiyadır. Sadəcə, bu aksiya müəyyən dərəcədə baş tutmamış sayılır. Səfirliyimizin əməkdaşının qəhrəmanlığı nəticəsində bunu genişləndirmək istəkləri mümkün olmadı. Ümumiyyətlə bu, acınacaqlı haldır. Hesab edirəm ki, səfirliyimizə olan hücumla İran bir daha terrorçu dövlət olduğunu təsdiqlədi. Bir səfirliyə hücum etmək, onun əməkdaşını öldürmək dünyada nadir hallarda rast gəlinən məsələdir. Amma bu məsələ İran tərəfindən bir neçə dəfə gerçəkləşdirilib. İran həm də etibarsız ölkə olaraq diqqəti cəlb etməyə başlayır. Hadisə haqlı olaraq Azərbaycan tərəfindən terror aktı kimi qiymətləndirildi. Bununla bağlı İrandan izahat gözləyirik. Orada bu işlə bağlı obyektiv araşdırma aparılmayacaq. Ona görə ki, bu prosesə Azərbaycan mütəxəssisləri dəvət olunmayıb. Bu isə o deməkdir ki, məsələ ilə bağlı hoqqabazlıq etməyə çalışacaqlar. Bu həm də onların yeni bir ifşası ilə nəticələnəcək. Azərbaycan diplomatik və hüquqi yollarla bunun adekvat cavabını verəcək.

***-Bu günlərdə İran mətbuatı belə bir məlumat yaydı ki, Azərbaycanın İrandakı səfirliyində terror aktı törədən Yasin Hüseynzadə ruhi xəstəxanaya yerləşdirilib...***

-Yeganə yolları budur. Bunu ört-basdır etmək üçün başqa necə edəcəklər? Həmin şəxs ifşa olundu ki, hadisəni birbaşa İran xüsusi xidmət orqanlarının tapşırığı ilə həyata keçirib. Əgər İran tərəfi səmimi idisə, çalışmalıydılar ki, Azərbaycanın bu məsələdə müəyyən dərəcədə razı qala biləcəyi forma tapsınlar. Amma onu etmədilərsə, problem ciddidir. Bu məsələ ətrafında hansısa spekulyasiyaya yer qalmır. Ruhi dispanserə yerləşdirmələrindən görünür ki, imkanları olsa idi, onu özləri öldürərdilər. Yəqin ki, orada iynə vurub öldürəcəklər. Bu məsələni örtbasdır etməkdən başqa yolları yoxdur. Açıq məhkəmə olsa, onlar daha pis vəziyyətdə qalacaqlar.

***-İranda səfirliyimizə terror hücumundan sonra rəsmi Bakı diplomatik nümayəndəliyin fəaliyyətinin dayandırılmasına qərar verdi. Bütün diplomatlar və onların ailə üzvləri İrandan təxliyə olundu. Bu ölkədə səfirliyin bərpası nə zaman mümkün ola bilər?***

-Səfirliyin bərpası İran təhlükəsizliklə bağlı təminat verəndən sonra mümkün ola bilər. Həmin binada yenidən səfirliyin olması isə qeyri-mümkündür. Çünki səfirlik elə bir yerdədir ki, terrorçu ölkədə istənilən vaxt hadisə ola bilər. Təhlükəsizlik üçün tam şərait olandan sonra buna baxmaq olar.

***-İranın Azərbaycana qarşı olan mövqeyinə diqqət etsək görərik ki, bunlar Vətən müharibəsində qazandığımız qələbədən sonra başladı. Hazırda bu ölkənin bizə qarşı münasibəti göz önündədir. Belə deyək, İran bizdən nə istəyir?***

-Molla ağlı ilə idarə olunan dövlət həmişə belə bir yanlışların içərisində olmalıdır. Çünki bu, rasional ağıl deyil. Ola bilsin ki, uzun müddət hakimiyyətdə olublar. Bu da zorun, şiddətin hesabınadır. Adamları edam edirlər və yazırlar ki, Allaha qarşı çıxdığına görədir. Allah hara, İran hara. Onlar qeyd etdiyiniz məsələdə ağılsız siyasət yeritdilər. Azərbaycanla dost olmaq yerinə, düşmən olma yolunu seçdilər. Bunun nəticəsi ortadadır. Onların bu fəaliyyətinin gələcəyi özlərinin ağılsız siyasətini düzəltməkdən asılıdır. İnanmıram ki, onu düzəltməyə ağılları çatsın. Azərbaycanla dost olub yolu açırdı, normal kommunikasiya da işləyirdi. Buna tamamilə mane oldular və kommunikasiya xətləri yarımçıq qaldı.

***-İrandakı soydaşlarımızın səfirliyimizdə törədilən terror hadisəsinə reaksiyası necə olmalıdır?***

- Biz bu məsələdə diqqətli olmalıyıq. Bütün hallarda İranın ərazi bütövlüyü ilə bağlı məsələdə müəyyən problemlər yaranmasına çalışmamalıyıq. Amma soydaşlarımızın mədəni haqlarının qorunması istiqamətində addımlar atmalıyıq və bu addımlar atılır. Bunu xüsusi siyasi kursa çevirməyimiz doğru deyil. Məsələn, Qərbi Azərbaycan məsələsini siyasi kursa çevirdik. Azərbaycanlılar ora qayıtmalıdır.



Amma ora ilə bağlı bizim strategiyamızda ancaq soydaşlarımızın mədəni haqlarının qorunması, onların gələcəkdə İran daxilində təhlükəsizliyinin təmin olunması əsasdır. Gələcəkdə orada olan insanların aktivliyi nəyi göstərsə, ona uyğun siyasət formalaşdırmaq olar.

***-Fevralın 1-də Milli Məclisin ilk iclasında çıxışınız zamanı İrandakı ziyarətgahlara gedən şəxslərə dövlətin nəzarət məsələsini qaldırdınız. O cümlədən bildirdiniz ki, meyxanaçılar arasında da nəzarətə götürülməli olanlar var. Bu hansı hallarla bağlıdır?***

-Azərbaycanda ələ alınan çox sayda agentura şəbəkəsinin əksəriyyəti İranda Məşhədə, Quma ziyarətə gedənlərin içərisindən seçilir. Böyük bir agentura şəbəkəsi ziyarətgahlarda qərar tutur. Ona görə də dövlət bunu nəzarətə götürməlidir. Həmin şəxslərə xüsusi risk qrupunda olan insanlar kimi yanaşılmalıdır. Onların ciddi yoxlanılması təmin olunmalıdır ki, xarici ölkənin marağına xidmət edən insanların şəbəkəsinin genişlənməsinə imkan verməyək. Meyxanaçıların hamısı İrana işləyən adamlar deyil. Onların da arasında normal insanlar var. Onları bu məsələyə qatmaq tam mənada doğru deyil. Amma içərisində eləlləri var ki, açıqlama verir ki, Şuşanı "hüseynçilər" azad etdi. Bu, birbaşa İranın xəttidir. Necə yəni "hüseynçilər"azad etdi? O zaman Azərbaycan Ordusu harada idi? "Hüseynçilər" elə azad edəndilərsə, Qafandan gedib İrəvanı tutsunlar. Məsələnin reallığı budur.

***-Bütün bu baş verənlər fonunda İran-Azərbaycan münasibətlərinin gələcəyini necə görürsünüz?***

-Hələki gələcəyi yoxdur. Qonşu ölkədir, bir dil tapılmalıdır. Amma İranın məlum terrorçu fəaliyyəti buna imkan vermir. Onlar Ermənistanı dəstəkləmək siyasətindən əl çəkməli, adam kimi qonşuluq xətti tutmalıdılar. Bu məsələdə biz tərəfdən heç bir problem yoxdur.

***Anar Kəlbiyev***

# Səfər Mehdiyevin kadrları təşviş içərisində

## Dövlət Gömrük Komitəsində "təmizləmə"lər davam etdiriləcək

***Ötən həftə Dövlət Gömrük Komitəsində növbəti korrupsiya əməliyyatı keçirildi. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan əməliyyat komitənin Aksizli mallar İdarəsində baş tutub.***

Bu barədə rəsmi açıqlamada bildirilib ki, adıçəkilən idarənin Gömrük dəyərləndirilməsi və risklərin idarə olunması şöbəsinin əməkdaşı Şahin İskəndərovun ölkəyə gətirilmiş avtomobillərə görə ödəniləcək rüsum və digər xərclərin azaldılması müqabilində rüşvət almasına əsaslı şübhələr müəyyən olunub. Habelə qeyd edilən dövlət qurumunun Şimal əməliyyat idi. Daha əvvəl - ötən il iyunun 10-da Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdi. Nəticədə DGK yanında "Azərterminalkompleks" birliyinin direktoru vəzifəsində işləyən Xəlilov Ehtiram Səyyaf oğlu, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəis müavini Babayev Rəşad Tofiq oğlu və Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsinin Yol vergiləri və icazə blanklarına nəzarət şöbəsinin rəisi vəzifəsində işləyən Səfərov Şükür İsbəndiyar oğlu barələrində həbs qətimkan tədbiri itiriblər.

DGK sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırovun "təmizləmələri" davam etdirdiyi gələn bilgilər arasındadır. İndiyədək komitənin bir sıra idarə rəhbərlərinin, şöbə rəislərinin dəyişdirilməsi bu qəbildəndir. Son olaraq Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsinin rəisi, gömrük xidməti polkovniki Əliyev Fərid Əlibaba oğlu işdən çıxıb.

"Unikal"ın əldə etdiyi məlumata görə, F.Əliyev 2018-ci ildə Səfər Mehdiyev tərəfindən bu posta təyin edilibmiş və keçmiş sədrə yaxın kadrlardan imiş.

Qaynaqlar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan əməliyyatı da DGK-da "təmizləmələr"in bir parçası kimi qiymətləndirirlər. Qarşıdakı dövrdə qurumda oxşar əməliyyatların aparılması, digər həbslərin də ola biləcəyi istisna edilmir.



Ərazi Baş Gömrük İdarəsinin Şirvanlı Gömrük Postunun əməkdaşı Cavid Məmmədovun postda yoxlama tədbirlərinin səthi və sürətli aparılması müqabilində rüşvət almasına, bundan başqa, onun dəfələrlə müxtəlif məbləğlərdə pul vəsaitlərini üzərində gizlədib bəyan etmədən Rusiya Federasiyasına qanunsuz keçirilməsinə köməklik göstərilməsi müqabilində vətəndaşlardan rüşvət almasına əsaslı şübhələr müəyyənləşdirilib.

Qeyd olunan faktlar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işləri başlanıb. Şahin İskəndərov və Cavid Məmmədova Cinayət Məcəlləsinin 311.2 (rüşvət alma) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələrilə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Onu da deyək ki, bu DGK-də son vaxtlar aparılan növbəti seçilmiş, eyni zamanda, Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi vəzifəsində işləyən Rəsulov Məsum Eynalı oğlu cinayət məsuliyyətinə cəlb edilmişdi.

Bunun ardınca isə Azərbaycan Prezidentinin sərəncamı ilə Səfər Mehdiyev DGK sədri vəzifəsindən azad olunmuşdu. 2018-ci ildən komitə sədri işləyən Mehdiyevin bu postdan kənarlaşdırılması məhz DTX əməliyyatı nəticəsində ortaya çıxan korrupsiya əməlləri ilə izah edildi.

Eyni zamanda, "Broker" MMC-nin rəhbəri Əbülfəz Məlikovun da Dövlət Gömrük Komitəsinin yüksək vəzifəli şəxsləri barəsində davam edən cinayət işi çərçivəsində saxlanıldığını xatırladaq. Mehdiyev DGK sədri vəzifəsini itirdikdən sonra qurumda genişmiqyaslı kadr islahatlarına start verilib. Komitənin nazir müavinləri də daxil olmaqla kifayət qədər yüksək vəzifə sahibləri işlərini

İddialar bu yöndədir ki, Səfər Mehdiyevin komitəyə 4 illik rəhbərliyi dövründə baş verən qanunsuzluqların miqyası kifayət qədər genişdir, bu qanunsuzluqlarda sabiq "gömrük şefi"nə yaxın bir çox yüksəkvəzifəli şəxsin iştirakı şübhə doğurmur. Onların bir çoxu hələ də vəzifələrində qalır. Bununla belə, DGK-da aparılan islahatların, o cümlədən "təmizləmələrin" həmin şəxslərdən də yan keçməyəcəyi vurğulanır.

Onu da deyək ki, komitənin hazırkı rəhbərliyi yeni mərhələdə gömrük orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəldilməsini qarşıya əsas hədəf olaraq qoyub. Bundan başqa, sahibkarlıq subyektləri, vətəndaşlar və gömrük əməkdaşlarının məmnunluğunun təmin edilməsi, büdcə daxilolmalarında gömrük ödənişlərinin dayanıqlılığının təmin edilməsi, rəqəmsal gömrük sisteminin yaradılması, güclü və etibarlı hüquq-mühafizə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub.

Hədəflərə çatmaq üçün Komitənin fəaliyyət planının müəyyən olunduğu barədə də məlumat var. Bildirilir ki, müxtəlif istiqamətlər üzrə işçi qrupları yaradılıb.

Bir sözlə, aparılan islahatlar, "təmizləmələr" nəticəsində DGK ilə bağlı çoxillik narazılıqlara son qoyulması gözlənilir.

***Sənan Mirzə***

# Əli Əsədovdan yaşayış minimumu ilə bağlı tapşırıq

***Gələn il üçün yaşayış minimumunun ilkin proqnozu müəyyənləşdiriləcək.***



"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun bu gün imzaladığı "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə" sərəncamda əksini tapıb.

Sərəncama əsasən, İqtisadiyyat Nazirliyi 2023-cü il üçün dəqiqləşdirilmiş, 2024-cü il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, ümumi və əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun 2024-cü il üçün ilkin proqnozlarını 2023-cü il martın 1-dək, dəqiqləşdirilmiş variantını 2023-cü il avqustun 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidir.

# Yaralı səfirlik əməkdaşlarının vəziyyəti necədir? - XİN-dən açıqlama

***"Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu zamanı yaralanan səfirlik əməkdaşlarının vəziyyəti yaxşıdır".***

Bunu "Unikal"a açıqlamasında Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə deyib.

"Onlar həkim nəzarətindədir. Müalicələri davam edir, vəziyyətləri yaxşıdır. Nə vaxt evə buraxılacaqları isə hələlik bəlli deyil".

***Seymur Əli***

# FHN: Ötən sutka 17 yanğına çıxış olub, 6 nəfər xilas edilib



***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.***

FHN-dən verilən xəbərə görə, "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 17 yanğına çıxış, 5 halda köməksiz vəziyyətdə qalma və 1 partlayış faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən ötən sutka ərzində 2-si azyaşlı olmaqla 6 nəfər xilas edilib, Nəsimi rayonunda yerləşən beşmərtəbəli yaşayış binasında partlayış baş verməsi nəticəsində 1 nəfər yanıq xəsarətləri alıb. Həmçinin, Qaradağ rayonunda dəmir yolu xəttində qatarın altında qalan 1 nəfərin meyiti çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

# Əvəz Zeynallı həyat yoldaşı ilə görüşdü

***Ötən ilin sentyabrında həbs edilən "Xural TV"nin baş redaktoru Əvəz Zeynallı ailəsi ilə görüşüb.***

Bu barədə onun həyat yoldaşı Məlahət Zeyanallı bildirib.

"Nəhayət, 145 gündən sonra həyat yoldaşım Əvəz Zeynallı ilə Bakı İstintaq Təcridxanasında görüşə bildim. Bütün dostlara, doğmalara salam söylədi. Azadlıqda görüşmək ümidilə ayrıldıq.

Ötən günlərdə ailə görüşümüzə qoyulan məhdudiyyətlərə etiraz olaraq keçirdiyim aksiyalarda bizə dəstək olan bütün dostlara təşəkkür edirəm", - M.Zeynallı deyib.

Qeyd edək ki, Əvəz Zeynallı dünən Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Təcridxanasından Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Hazırda Ə.Zeynallının ibtidai istintaqı davam edir.

Xatırladaq ki, Ə.Zeynallı "Baku Steel Company" şirkətinin həbsdə olan sabiq rəhbəri Rasim Məmmədovun ailə üzvlərindən külli miqdarda rüşvət almaqda təqsirləndirilir.

Jurnalist barəsində Cinayət Məcəlləsinin 311.3.3-cü maddəsi ilə ittiham irəli sürülüb.

## Qarabağda mühəndis təminatı üzrə tədbirlər görülür



***Cari ilin yanvar ayı ərzində Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində ümumilikdə 3600 km-dək yol qar örtüyündən təmizlənib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirlib ki, çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan Azərbaycan Ordusunun hərbi hissələrində istənilən hava şəraitində xidməti-döyüş fəaliyyətinin təşkili məqsədilə zəruri tədbirlər həyata keçirilir.

Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kalonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə cari ilin yanvar ayı ərzində Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində ümumilikdə 3600 km-dək yol qar örtüyündən təmizlənib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər plana uyğun davam etdirilir.

## Polis əməliyyat keçirdi - 10 narkotacir saxlanıldı

***Siyəzən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində narkotiklərin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı əməliyyatlar keçirilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan "Unikal"a verilən məlumata görə, keçirilən əməliyyat axtarış tədbirləri zamanı narkotik vasitələrin əldə etməsi, saxlanılması, daşınması və satışı ilə məşğul olan Elman Qiyasov saxlanılıb. Həmin şəxsin üzərinə baxış keçirilən zaman bükülülərdə satış məqsədi ilə daşıdığı narkotik vasitə olan heroin aşkar olunaraq götürülüb.

Siyəzən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən yanvar ayı ərzində keçirilən əməliyyatlar nəticəsində isə ümumilikdə narkotiklərin əldə edilməsi, daşınması və saxlanılması ilə məşğul olan 10 nəfər ( Həsənağa Hüseynov, Gündüz Şıxəliyev, Çimnaz Bayramova, İntiqam Balayev, Xancan Bayramov, Elnur Eldarov, Hikmət Abbasov, Zöhrab Əmirquliyev və Ramin Əliyev) saxlanılıb, həmin şəxslərdən müxtəlif növ narkotik vasitələr aşkarlanıb. Bütün faktlarla bağlı RPŞ-də cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə E.Qiyasovun barəsində həbs qətimkan tədbiri, digər şəxslərin barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

## Diasporumuz Yunanıstanı ədalətli mövqe tutmağa səslədi

***Yunanıstanda yaşayan Azərbaycan icması ölkəmizin İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktını şiddətlə pisləyib.***

"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin və Saloniki Azərbaycan Evinin yaydığı bəyanatda İranda heç bir diplomatik nümayəndəliyin toxunulmazlığına zəmanətin olmadığına, 40 milyon azərbaycanlının hüquqlarının davamlı olaraq pozulduğuna, son vaxtlar Azərbaycana münasibətdə məhz İran İslam Respublikasının Ermənistanla birgə ölkəmizin sərhədləri daxilində qanunsuz əməllər törətdiyinə diqqət cəlb edilib.

Yunanıstan azərbaycanlıları yerli və dünya ictimaiyyətini regionda baş verənlərlə bağlı ədalətli mövqe tutmağa, bu terror aktının təşkilatçılarının məsuliyyətə cəlb olunması üçün beynəlxalq hüquq normalarına uyğun olaraq təcili tədbirlər görməyə çağırıblar.

# Mədəniyyət Nazirliyində tender oyunları

## Vəzifəli şəxslər satınalmalarla bağlı müsabiqələrin nəticələrinə necə təsir edirlər?



***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Mədəniyyət Nazirliyi ilə "Debüt Studiyası" MMC arasındakı müqavilənin ləğvini tələb edir.***

Qurum bununla bağlı Mədəniyyət Nazirliyinə məktub göndərib. Nazirliklə şirkət arasındakı müqavilə isə "İNTERACT FİLM LAB" təlim layihəsi ilə bağlı olub. Müqavilənin maliyyə dəyəri 385.270 manat olub.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin araşdırmaları nəticəsində aydın olub ki, müqavilə satınalma proseduru keçirilmədən imzalanıb. Dövlət qurumu müsabiqənin "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçirilməsini tələb edib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında göstərilir ki, "Debüt Studiyası" MMC 7 oktyabr 2020-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 100 AZN olan şirkətin qanuni təmsilçisi Abbasov Orxan Vahid oğludur. Orxan Abbasov həm də MMC-nin direktoru vəzifəsini daşıyır. Bu arada "Qaynarinfo" yazıb ki, "Debüt Studiyası" MMC-nin Orxan Abbasovdan əvvəlki direktoru Rüfət Həsənov olub. Rüfət Həsənov Mədəniyyət Nazirliyinin auidovizual və interaktiv şöbəsinin müdiridir. Nazirliyin maliyyə dəyəri 385 min manata yaxın layihəni "Debüt Studiyası" MMC-yə müsabiqə keçirmədən həvalə etməsi şirkətin Rüfət Həsənova yaxınlığı ilə izah edilir.

Rüfət Həsənov haqqında açıq mənbələrdə və yerli mediada gedən məlumatlarda da onun vaxtilə "Debüt Studiyası" MMC-nin direktoru olduğu qeyd edilib.

"Unikal"ın araşdırmasına görə bundan əvvəl, daha dəqiq desək, ötən ilin yayında "Qarınqulu" animasiya filminin çəkilişinin tender keçirilmədən Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Salnaməfilm" studiyasına verilməsi ortaya çıxmış və bu, qalmaqala səbəb olmuşdu. Ardınca da İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarəti Xidməti Mədəniyyət Nazirliyinə "Qarınqulu" tammetrajlı animasiya filminin istehsalı ilə əlaqədar "Salnaməfilm" studiyası ilə bağladığı müqavilənin ləğv edilməsi üçün məktub göndərmişdi. Bu barədə Azərbaycanda animasiya filmələri sahəsində ixtisaslaşan "NME" MMC-nin direktoru Nicat Manafovun müraciətinə verilən cavab məktubunda göstərilmişdi. Bildirilmişdi ki, Xidmət nazirlikdən müqavilənin ləğv edilməsini və "Dövlət Satınalmaları haqqında" Qanuna müvafiq olaraq bütün podratçılara bərabər rəqabət mühitini təmin etməklə tender keçirilməsini tələb edib.

Lakin bir neçə ay sonra məlum olmuşdu ki, "NME" MMC-nin rəhbəri Mədəniyyət Nazirliyini məhkəməyə verməyə hazılaşır. Səbəb isə "Salnaməfilm" studiyası ilə müqavilənin ləğv olunması və "Dövlət Satınalmaları haqqında" Qanuna müvafiq olaraq bütün podratçılara bərabər rəqabət mühitini təmin etməklə tender keçirilməsi barədə tələbə Mədəniyyət Nazirliyi tərəfindən əməl olunmamasıdır.

"Unikal"ın araşdırması onu da göstərir ki, Mədəniyyət Nazirliyində tenderlərin obyektivliyi, şəffaflığı ciddi şübhə altındadır. Bu proses Əbülfəs Qarayevin dövründə güclənib, Anar Kərimovun nazir olduğu dövrdə isə artan xətlə davam edib. Nazirliyin vəzifəli şəxslərinin satınalmalarla bağlı müsabiqələrin nəticələrinə təsir etməsinin adət halını aldığını deyən qaynaqların sözlərinə cəmi altı ay içərisində iki tenderin sonuclarının ləğv olunması deyilənlərin bariz göstəricisidir.

Elə iki il içərisində Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) adıçəkilən nazirlikdə iki anti-korrupsiya əməliyyatı keçirməsi də təsadüfi deyil. Bu əməliyyat zamanı ortaya çıxarılan qanunsuzluqların əhəmiyyətli hissəsi məhz dövlət satınalmaları ilə bağlıdır.

Lakin acınacaqlısı odur ki, Mədəniyyət Nazirliyinin müəyyən vəzifəli şəxsləri bütün bunlardan hələ də lazımı qədər dərs çıxarmadıqlarını ortaya qoyurlar. Elə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin sözügedən nazirliyə müsabiqələrin "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçirilməsini mütəmadi olaraq xatırlatmaq ehtiyacı hiss eləməsi də bu yazdıqlarımızı təsdiqləyir. Əgər nazirlikdə yüksək post tutanlar Xidmətin həmin xatırlatmalarına əməl etməməyə davam eləsələr yeni anti-korrupsiya əməliyyatının keçirilməsi sürpriz olmayacaq...

Onu da deyək ki, son vaxtlar ölkə başçısı öz çıxışlarında tenderlərlə bağlı yol verilən korrupsiya hallarını dəfələrlə tənqid edib. Lakin mediada yer alan məlumatlardan, rəsmi qurumların araşdırmalarından belə görünür ki, ayrı-ayrı nazirliklərdə, icra hakimiyyətlərində, dövlət komitələrində hələ də satınalma müsabiqələri dövlət büdcəsinin talan edilməsi üçün vasitə olaraq qalır. Bu isə o anlama gəlir ki, biz məmur həbsləri barədə xəbərləri bundan sonra da çox oxuyacağıq...

***Toğrul Əliyev***

# Siraqəddin Cabbarov üçün də yolun sonu görünür

## Azərbaycanın ən "stajlı" icra başçılarından daha biri vəzifəsini itirə bilər

***İlk ayını arxada qoyduğumuz 2023-cü ildə vəzifəsindən azad edilməsi gözlənilən icra başçılarından daha birinin adı məlum olub. Bu, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarovdur.***

Xatırladaq ki, 64 yaşlı Cabbarov 2019-cu ildən həmin vəzifədə çalışır. Ondan əvvəl isə 10 il boyunca Saatlı rayonuna rəhbərlik edib.

Bildirildiyinə görə, Cabbarovun fəaliyyəti ilə bağlı rayonda ciddi narazılıq var. Narazılıqlar əsasən sosialyönümlüdür, yerli icra hakimiyyətinin problemlərə kifayət qədər operativ reaksiya verməməsi istər mediaya, istərsə də müxtəlif dövlət qurumlarına əhalidən çoxsaylı şikayətlərin daxil olmasını şərtləndirib.



Ötən ilin yayında Cabbarovun adı növbəti dəfə qalmaqallı şəkildə ortaya gəlib. Buna səbəb Vətən müharibəsinin qazisi, 3-cü qrup Qarabağ əlili, 35 yaşlı Elvin Cəfərovun özünü yandırması nəticəsində vəfat etməsi olub. Həmin hadisədən sonra Sabirabad rayon İcra Hakimiyyəti və onun rəhbəri ictimaiyyət arasında kəskin qınaq obyektinə çevrilib. Düzdür, Siraqəddin müəllim həmin vaxt mediaya açıqlamasında hadisənin onlarla əlaqələndirilməsini təkzib edib və qazinin psixoloji problemlərinin olduğunu söyləyib, eyni zamanda onun daim diqqət və qayğı ilə əhatə olunduğunu vurğulayıb.

Lakin sözügedən açıqlama da onun başçısı olduğu İcra Hakimiyyətinin ünvanına sərt ittihamlar səsləndirilməsinə son qoya bilməyib.

Cabbarovla bağlı daha bir qalmaqallı xəbərdə onun hələ Binəqədidə icra başçısının müavini olarkən, müxtəlif avtobus marşurutlarını ələ keçirdiyi, rayon ərazisində xeyli ticarət obyektlərinə, mülklərə sahib olduğu deyilirdi. KİV-in yazdığına görə o, paytaxtın 7-ci mikrorayon adlanan ərazisində çoxsaylı obyektlərin sahibidir. Həmin obyektlərin bir qisminin adı da mətbuatda yer almışdı: "Aran Ticarət Mərkəzi"; "Aran" restoranı; Binəqədi rayonu ərazindəki "Qədim Qəbələ" restoranı; "100 cars" avtomobil salonu; 7-ci mikrorayon ərazisində yerləşən xeyli sayda mağaza və obyekt.

Maraqlıdır ki, icra başçısı bu yazılanları təsdiqləməsə də, təkzib də eləməmişdi.

Bundan əvvəl isə Siraqəddin Cabbarovun adı rayondakı sahibkarların narazılıqları ilə də gündəmə gəlmişdi. Bir qrup sahibkarın Sabirabad Rayon İcra Hakimiyyətinin başçısından şikayətçi olduğuna dair xəbərdə iddia edilirdi ki, icra başçısı vəzifə səlahiyyətlərindən sui-istifadə edərək sahibkarları incidir. Həmin iddialara görə, sahibkarların otlaq və digər məqsədlər üçün istifadə etdiyi qanuni torpaqlar rayon rəhbərliyi tərəfindən satılır.

Bildirilir ki, Cabbarov hələ illər öncə Saatlının icra başçısı olarkən rayon sakini Ağabəli adlı şəxsin sahibkarlıq obyektini sökdürüb, bu hadisədən dolayı sahibkar ürək tutmasından vəfat edib. Digər bir məlumat isə ondan ibarətdir ki, icra başçısı başqa bir rayon sakini, iş adamı, "Beko" mağazalar şəbəkəsinin Saatlı rayon şöbəsinin sahibi Eyvaz adlı şəxsin barəsində isə Azərbaycan CM-nin 147 və 315-ci maddələri ilə cinayət işi başlatmağa nail olub, günahsız yerə təqsirləndirilən həmin şəxs Azərbaycan ərazisindən xarici ölkəyə qaçaraq canını həbsdən qurtarıb.

Sabirabad sakinləri - Yengibar Mirzəyev və Vüqar Məmmədovun yerli mediada işıqlandırılan şikayətlərində isə bildirilirdi ki, Sabirabad rayon ərazisində 20 min hektardan çox dövlət fondunda olan torpaqlar heyvandarlığın inkişafında böyük rol oynayan maldarlıq sahəsi üçün sahibkarlara icarəyə verilməsi nəzərdə tutulub. Sitat: "Lakin Cabbarov dövlət ehtiyat fonduna aid torpaqların təyinatını qanunsuz dəyişməklə heyvandarlıq və qoyunçuluq üçün nəzərdə tutulan torpaq sahələrini əkin və balıqçılıq gölü yaratmaq üçün yuxarı dairələrdə arxaları olan şəxslərə icarəyə verib. Beləliklə, Sabirabad rayonu ərazisində 20 min hektar dövlət ehtiyat fonduna aid torpaqlardan 10 min hektara yaxınının təyinatı qanunsuz şəkildə dəyişdirilərək əkin və balıqçılıq sahəsinə çevirmiş, heyvandarların vəziyyətini ağırlaşdıran hallara yol verib".

Həmin vaxt yerli RİH-in şöbə müdirinin müavini Əliabbas Həsənov bu iddiaları şərh etmək istəməyib: "Bu məsələ ilə bağlı icra başçısının köməkçisi ilə əlaqə saxlayın". İcra Hakimiyyətinin rəsmi saytında adı başçının köməkçisi kimi qeyd olunan Zaur Əsədov isə bildirib ki, o, bu vəzifədən çoxdan çıxıb. Maraqlıdır ki, o zaman onun adı hələ də İcra Hakimiyyətinin rəsmi saytında qalırmış...

Onu da deyək ki, Siraqəddin Cabbarovun adı hələ 2 il öncədən etibarən vəzifədən kənarlaşdırılacaq icra başçılarının arasında gözlənilirdi. Hətta bir çox rayonlarda olduğu kim Sabirabadda da antikorrupsiya əməliyyatlarının keçirilməsi istisna olunmurdu. Ancaq həmin ehtimallar indiyədək özünü doğrultmayıb. Bununla belə, adıçəkilən rayondan gələn şikayət xarakterli məlumatlar, eyni zamanda müxtəlif dövlət qurumlarına ünvanlanan narazılıq dolu məktublar son vaxtlar daha da artdığından Cabbarovun hazırkı postunda çox qala bilməyəcəyini düşünənlər yetərincədir.

***Sənan Mirzə***

# Türkiyənin energetika naziri Bakıya gələcək



***Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz sabah baş tutacaq Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu toplantısında iştirak etmək üçün Bakıya səfər edəcək.***

"Unikal" xəbər verir ki, toplantıda F. Dönməz Türkiyənin enerji ticarət mərkəzi hədəfində çatdığı son nöqtə ilə bağlı məlumat verəcək. F.Dönmezin səfəri çərçivəsində Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson da daxil olmaqla bir çox ikitərəfli görüşlər keçirməsi nəzərdə tutulur. O, həmçinin fevralın 14-də keçiriləcək İstanbul Qaz Zirvəsinə həmkarlarını və sektor nümayəndələrini dəvət etmək niyyətindədir.

# Ali Məhkəmə Ata Abdullayevlə bağlı qərar verdi

***Bloqer Ata Abdullayev barəsindəki qərardan verilmiş kassasiya şikayətinə baxılıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Ali Məhkəmədə hakim İlqar Qılıcovun sədrliyi ilə baxılan iş üzrə qərar elan olunub. Qərara əsasən, şikayət təmin olunmayıb.

Xatırladaq ki, Ata Abdullayev Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub.

O, Cinayət Məcəlləsinin 182.2.2 (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə təqsirli bilinərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü il 7 il azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi hökmü dəyişdirmədən qüvvədə saxlayıb.

# Zaur Mikayılovun vətəndaş qəbulunun vaxtı dəyişdi

***Azərbaycan Merliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılovun fevral ayının 10-da Şəmkir şəhərində Şəmkir və Gədəbəy rayonlarının sakinləri ilə keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişib.***

"Unikal" xəbər verir ki, sədr Zaur Mikayılov vətəndaşları Şəmkir Suvarma Sistemləri idarəsinin inzibati binasında fevral ayının 15-də qəbul edəcək.

# ETSN "Bakı KOB evi"ndə fəaliyyət göstərir

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Bakı KOB evi"ndə fəaliyyət göstərir.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin mətbuat xidməti məlumat yayıb. Belə ki, ETSN tərəfindən "Bakı KOB evi"ndə sahibkarlara 9 istiqamət üzrə xidmət göstərilir:

- su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazə verilməsi;
- dövlət ekoloji ekspertizasından keçirilməli olan obyektlər barədə ekspert rəyinin verilməsi;
- atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə icazə verilməsi;
- balıqovlama biletinin verilməsi;
- zooloji kolleksiyaların yaradılmasına, zənginləşdirilməsinə, onlarla ticarətə, belə kolleksiyaların Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara göndərilməsinə və aparılmasına icazə verilməsi;
- kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə (sertifikat) verilməsi;
- yaşıllığın götürülməsi vərəqinin verilməsi;
- yerin təkindən faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı məqsədilə müəyyən sahələrə "Dağ-mədən ayırması" statusunun verilməsi;
- geoloji öyrənilmə məqsədi ilə ayrılan yer təki sahələrinə geoloji ayırma statusunun verilməsi.

Sahibkarlar bu xidmətlər üçün ETSN-in "Bakı KOB evi"ndə xidmət göstərən mütəxəssislərinə müraciət edə bilərlər. Sözügedən xidmətlərin ölkənin digər şəhər və rayonlarında fəaliyyət göstərən KOB evlərində də həyata keçirilməsi planlaşdırılır.

# Gənc alimlər üçün Akademiya mükafatı təsis olundu



***Azərbaycan Milli Elmlər Akademiyasında gənc alimlər üçün Akademiya mükafatı təsis olunub.***

Bu sözləri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli fevralın 2-də Azərbaycan Milli Elmlər Akademiyasında Gənclər Gününə həsr olunmuş "Akademiyanın elmi gəncliyi: reallıqlar və perspektivlər" mövzusunda keçirilən elmi konfransda deyib.

AMEA-da çalışan gənc alimlər üçün Akademiya mükafatının təsis edilməsinin qərara alındığını bildirən akademik İsa Həbibbəyli hər il "İlin gənc alimi" nominasiyası üzrə xüsusi mükafatın veriləcəyini açıqlayıb.

AMEA rəhbəri gənc tədqiqatçılara dəstək naminə AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının təsisçiliyi ilə ildə 2 dəfə nəşr edilən "Gənc tədqiqatçı" jurnalının bu ildən başlayaraq 4 nömrəyə çatdırılacağını, 1 nömrənin isə ingilis dilində çap ediləcəyini diqqətə çatdırıb.

# AQTA-dan xəbərdarlıq: "İkinci sort toyuğu "kənd toyuğu" kimi satırlar"

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bazarlarda ucuz qiymətə (3-ü 10-11 manata) toyuq məhsullarının satışı ilə bağlı kütləvi informasiya vasitələrində yayılan məlumatlara əsasən, ölkə ərazisində fəaliyyət göstərən ticarət şəbəkələrində monitorinq aparıb.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, monitorinq zamanı Gürcüstandan "Nazal-M" MMC tərəfindən ölkəyə idxal edilən "Poultry Georgiya" MMC-nin istehsalı olan, Belarus Respublikasından "Orion Qlobal" MMC tərəfindən gətirilən "Soliqorsk Quşçuluq Fabriki" ASC-nin istehsalı olan və "AFM Construction" MMC tərəfindən idxal edilən "1-ci Minsk Quşçuluq Fabriki" ASC-nin istehsalı olan ikinci sort toyuq məhsullarının "kənd toyuğu" adı altında satışının həyata keçirildiyi müəyyən edilib.

Monitorinq çərçivəsində idxal olunan toyuqlardan götürülən məhsulların etiket məlumatlarında "kənd toyuğu" yazılmaqla, istehlakçıların aldadılmasının qarşısının alınması və hüquqlarının müdafiəsi məqsədilə "Orion Qlobal" MMC, "Nazal-N" MMC və "AFM Construction" MMC-də plandankənar yoxlamalar aparılıb.

Yoxlamalar zamanı toyuq məhsullarının ticarət obyektlərindən geri çağırılması ilə əlaqədar məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul olunub və müəssisələrin məsul şəxsləri barəsində inzibati tənbeh tədbirləri görülüb. Verilmiş qərarın icra vəziyyətinin yoxlanılması ilə əlaqədar Agentliyin əməkdaşları tərəfindən ticarət obyektlərində təkrar monitorinqlər keçirilib. Bu çərçivədə ümumilikdə 1218.9 kq "kənd toyuğu" adı ilə dövriyyəyə buraxılan məhsul dərhal satışdan kənarlaşdırılıb, müəssisə rəhbərliyinə həmin məhsulun idxalçı şirkətə geri qaytarılması ilə bağlı icrası məcburi göstərişlər verilib. Əlavə olaraq, sözügedən idxalçılar tərəfindən ümumilikdə 29 799 kq "kənd toyuğu" sözləri qeyd edilmiş ikinci kateqoriyalı toyuq məhsullarının ticarət obyektlərindən geri qaytarılması və üzərində müvafiq dəyişikliklər edilərək yenidən satışa göndərilməsi təmin olunub.

Bununla yanaşı, "AFM Construction" MMC tərəfindən üzərində "Belarus kənd toyuğu" yazısı qeyd olunan 9000 kq məhsul partiyasının "MIN300" MMC-yə satıldığı müəyyənləşib. Həmin MMC-də aparılan plandankənar yoxlama çərçivəsində sahibkar tərəfindən toyuqların guya "geri qaytarılması" barədə saxta qaimə təqdim edilib. Aparılan araşdırmalarla "MIN300" MMC-nin təqdim etdiyi qaimənin saxta olması və toyuqların həmin şirkət tərəfindən mənimsənilməsi faktı ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroruna məktub ünvanlanıb. "AFM Construction" MMC -nin vəzifəli şəxsi barəsində inzibati tənbeh tədbiri görülüb.

Məlumat üçün bildiririk ki, laborator sınaqları aparılan yuxarıda adları çəkilən məhsulların təhlükəsizlik göstəriciləri qida sahəsində texniki normativ hüquqi aktın tələblərinə uyğun olub.

Qeyd edək ki, AQTA qanunvericiliyə, o cümlədən öz əsasnaməsinə uyğun olaraq, ölkə ərazisində qida təhlükəsizliyinin təmin edilməsi, istehlakçı hüquqlarının müdafiəsi, istehlakçıların aldadılmasının qarşısının alınması istiqamətində ölkəyə idxal olunan, habelə satışda olan ət və ət məhsullarının dövriyyəsinə nəzarət tədbirlərini davam etdirir. Belə ki, keçirilən monitorinqlər zamanı avtomobillərin yük yerində, bazarlarda, ticarət şəbəkələrində mənşəyi məlum olmayan, müvafiq baytarlıq (baytarlıq-sanitariya) ekspertizasından keçirilməyən və baytarlıq sənədləri ilə müşayiət edilməyən, temperatur rejiminə, soyuq zəncir prinsipinə əməl olunmadan, etiketlənməsi qida sahəsində qanunvericiliyin tələblərinə cavab verməyən toyuq və toyuq məhsullarının satışının həyata keçirildiyi müəyyən edilir ki, belə olan hallarda həmin məhsulların satışının qadağan olunması və dövriyyədən yığışdırılması barədə icrası məcburi qərarlar qəbul edilir.

AQTA tərəfindən bundan sonra da avtomobillərin yük yerində, ticarət şəbəkələrində "kənd toyuğu" adı altında məhsulların satışı hallarına qarşı ciddi mübarizə tədbirləri görüləcək.

# Tibbi Ekspertiza və Reabilitasiya Agentliyinin əcaib məntiqi

## Əlillik verilməli olan şəxslərin bu haqqı əldə etməsi üçün cəmiyyətin reaksiyası lazımdır?



***Bu günlərdə 12 yaşlı Şirinli Yusif Azər oğluna əlillik verilməməsi ilə bağlı sosial şəbəkələrdə məlumat paylaşılıb. Paylaşımda Yusifin videogörüntüləri də əks olunub. Həmin görüntülərdə Yusifin adıçəkilən xəstəlikdən əziyyət çəkdiyi aydın görünür.***

İddia edilib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 12 yaşlı Yusifə əlillik təyin edilməsindən imtina edib. Lakin maraqlıdır ki, görüntülərin yayılmasından sonra Yusif Şirinliyə əlillik təyin olunub. Bu barədə Tibbi Ekspertiza və Reabilitasiya Agentliyindən bildirilib.

Məlumatda qeyd olunub ki, əlilliyinin qiymətləndirilməsi məqsədilə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim ekspertləri tərəfindən əyani müayinə edilib: "Müayinə zamanı, ona orqanizmin funksiyalarının 100 faiz pozulmasına görə əlillik təyin edilib və bu təyinata uyğun olaraq da aylıq sosial ödənişlə təmin olunacaq. Bu barədə Şirinli Yusifin ailəsi də məlumatlandırılıb".

12 yaşlı Yusifə qarşı haqsızlığın aradan qaldırılması sevindiricidir.

Bununla belə ortaya çıxır: əlillik verilməli olan şəxslərin bu haqqı əldə etməsi üçün illah ki, problemlərini ictimailəşdirmələri, sosial şəbəkələrin ayağ qalxması, cəmiyyətin reaksiyası lazımdır?!

Məsələ burasındadır ki, Tibbi Ekspertiza və Reabilitasiya Agentliyindən narazılıqlarla bağlı məlumatlara tez-tez rastlaşırıq. Bu narazılıqların kökündə isə daha çox eyni səbəb dayanır - əlilliklərin verilməsində süründürməçilik, ən əsası isə buna haqqı çatanların həmin haqdan müxtəlif bəhanələrlə imtina edilməsi!

Əlbəttə, müxtəlif vaxtlarda əlilliyin verilməsində sui-istifadə hallarının yaşanması danılmaz həqiqətdir. Lakin son vaxtlar sosial şəbəkələrdə, mediada yer alan şikayətlərdən belə aydın olur ki, bu cür sui-istifadə hallarının aradan qaldırılması istiqamətində addımlar atılarkən fərqli mənzərələr də ortaya çıxır - sağlamlığının qaydasında olmadığı ilk baxışdan belə aydın görünən vətəndaşlar əlillik hüququ əldə etməkdə çətinlik çəkirlər. Elə 12 yaşlı Yusifin timsalında olduğu kimi!

Axı necə ola bilər, videokadrlarda belə ağır xəstə olduğuna şübhə qalmayan birinə əlillik təyinatı verilməsindən imtina olunsun? Bu cür imtina qərarı necə, hansı səbəblərdən verilə bilər?

Və niyə yalnız ictimai ajiotajdan sonra, həm də cəmi biriki günün içində əlillik təyin olunur?

Onu da deyək ki, son zamanlar əlilliyin verilməsində və əlillik təyinatından imtinada şəffaflığın xeyli dərəcədə aradan qalxdığı barədə fikirlər geniş yayılıb. Bu fikirlərin sahibləri isə yalnız sadə vətəndaşlar, ya da sosial sahə üzrə mütəxəssislər, ekspertlər deyillər. Məsələ ondadır ki, yaranmış vəziyyətlə bağlı olaraq mütəmadi şəkildə millət vəkillərinin də tənqidi tonda çıxışlarını eşidirik. Nümunə olaraq deputat Vüqar Bayramovun bir müddət öncəki sözlərini xatırlatmaq kifayətdir: "Əslində, əlilliyin verilməsi ilə bağlı elektron müraciət heç də kütləvi imtina üzərində qurulmamalıdır. Bizə olan müraciətlər də göstərir ki, əlillik almaq hüququ olan xeyli sayda vətəndaşlarımız, təəssüf ki, süni maneələr səbəbindən əlillik dərəcəsi ala bilmirlər. Tibbi-sosial ekspert komissiyaları tərəfindən qiymətləndirmənin və eləcə də kütləvi imtinanın hansı meyarlar ilə həyata keçirildiyi bəlli deyil".

O da bir reallıqdır ki, əlilliyin təyinatı ilə bağlı şikayətlərə baxılmır, ya da əksər hallarda şikayətlərə ümumi, standart cavab verilir. Hətta elektron sistemin şəffaflığı artırmaq əvəzinə bunun üstündən xətt çəkdiyini bildirənlər də az deyil. Qeyd olunur ki, əvvəlki vaxtlarda imtina alan şəxslər müvafiq TSEK-lərə müraciət edib onları narahat edən, maraqlandıran suallara cavab ala bilirdilər.

İndi isə TSEK daxil bütün əlaqədar instansiyalarda təxminən eyni cavab verilir: "Bizlik deyil, hər şey elektron sistemlə müəyyən olunur".

Söhbət elə bir sistemdən gedir ki, onun idarəetməsi də əslində əlilliklə bağlı narazılıqlara yol açan qurumların öz əlindədir. Nəticədə çox sada real xəstə pensiyadan, əlillik təyinatının onlara verdiyi imtiyazlardan məhrum olur. İndiki sosial-iqtisadi şəraitdə bu pensiyanın, digər imtiyazların xəstə, fiziki məhdudiyyətli vətəndaşlarımız üçün nə qədər həyati önəm daşıdığını isə, görünür, bir çox vəzifəli şəxslər anlamaqda çətinlik çəkirlər. Necə deyərlər, "acın toxdan nə xəbəri?!".

***Toğrul Əliyev***

5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafında mühüm yol keçib

## Əlməmməd Nuriyev: "Azərbaycanda hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatlar davamlı xarakter daşıyır"



***Azərbaycanda hüquqi dövlət qurulmasında ümumilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" dövlətimizi rəsmi olaraq 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olan Azərbaycan Demokratik Respublikasının varisi və müstəqil respublika elan edibdir.***

Ümummilli lider Heydər Əliyevin 1998-ci ilin 22 fevralında imzaladığı "Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman insan hüquqlarının təminatı yönümündə həyata keçirilən ən mühüm tədbirlərdəndir. Bu günlərdə Azərbaycanda hüquqi dövlətin qurulmasında misilsiz xidmətləri olan ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar əfv sərəncamının imzalanması gözlənilir. Bununla bağlı Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc parlamentdə çıxışı zamanı bildirib. Zahid Oruc sərəncamın may ayında, ulu öndərin doğum günü ərəfəsində reallaşacağını istisna etməyib. Artıq Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası da prosesə başlayıb. Komissiya indiyə qədər dörd iclas keçirib və ümumilikdə 500-ə qədər müraciətə baxılıb.

"Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əlimməmməd Nuriyev "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycanda sonuncu əfv sərəncamı ötən il martın 18-də imzalanıb: "2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu səbəbdən Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Sözügedən əfv sərəncamının isə "Heydər Əliyev İli" çərçivəsində, ulu öndərin doğum günü ərəfəsində imzalanması gözlənilir. Qeyd edim ki, 1995-ci ildən bu günə kimi əfvetmə ilə bağlı 68 fərman və sərəncam imzalanıb və 8 987 məhkum əfv olunub. 32 əfv sərəncamı Ulu Öndər Heydər Əliyev tərəfindən, 36-sı isə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanıb və həmin aktlar 5 885 nəfərə şamil olunub. Bu sərəncamlar məhbusluqdan azad olmuş şəxslər üçün də yeni fürsət və imkanlar yaradır. Ümid edirik ki, azadlığa çıxmış insanlar ölkəmizin inkişafına öz töhfəsini verəcək".

Əlimməmməd Nuriyevin sözlərinə görə, təkliflər çox ciddi araşdırılmalı, uyğun məqamlar fəaliyyət planına daxil edilməlidir: "Mən əminəm ki, əhəmiyyətli, məzmunlu, Ulu öndərin adına layiq fəaliyyət planı olacaq. Biz bunun uğurla icra edildiyinə şahid olacağıq və bütün bu işlər Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə, cəmiyyətin rifahına töhfələr verəcək".

Ə. Nuriyev ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində işlərin sürətlə davam etdiyini, qanunların təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırıldığını söyləyib. Onun sözlərinə görə, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanı ilə aidiyyəti qurumların qarşısında mühüm vəzifələr qoyulub. O, qeyd edib ki, hazırda da Azərbaycanda insan hüquqlarının müdafiəsi və hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatlar davamlı xarakter daşıyır.

Ə.Nuriyev deyir ki, ictimai şuraların yaradılması vətəndaş cəmiyyətinin inkişafına mühüm töhvələrdəndir. O, bildirdi ki, dövlət orqanına etibarın qazanılmasında ictimai şura əsas rol oynayır. Həmsöhbətimiz onu da bildirdi ki, ictimai şuraların hazırkı fəaliyyətini hələ ki, qənaətbəxş hesab etmək olmur. Amma zamanla şuralar özünün vahid sistemini yaratmalı və ümumi problemləri birgə təqdim etməlidir.

Ə.Nuriyev qeyd edib ki, "İctimai iştirakçılıq haqqında" qanunun qəbulu bütövlükdə cəmiyyətin inkişafına töhvə verən, hüquqi dövlətin qurulmasına yönəlik addımdır. O, İctimai şuraların müxtəlif sahələrdə qanunların qəbulunda böyük rol oynadığını, qanunların təkmilləşdirilməsinə töhvə verdiyini söyləyib. Ə. Nuriyev bildirib ki, layiqli vətəndaş cəmiyyəti qurmağın yolu hüquqi dövlət qurmaqdan, ictimai nəzarətdən keçir. Bu da dövlət qurumlarında şəffaflığın artırılmasına səbəb olur ki, sonda vətəndaş məmnuniyyəti ilə nəticələnir.

Həmsöhbətimiz vurğuladı ki, ictimai iştirakçılığın təşviqi sahəsində fəal maarifləndirmə işlərinin KİV-də aparılması böyük önəm daşıyır. Belə ki, ictimai iştirakçılıq sahəsində bilik və bacarıqların artırılması mövzusunda yerli icra hakimiyyəti orqanlarının əməkdaşları və ictimai şura üzvləri üçün təlimlər davam etdirilməlidir. Bütün dövlət qurumlarında da ictimai nəzarət təmin edilməlidir.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# İran vurularsa, Azərbaycanla Türkiyənin tutacağı mövqe - Təhlil



***"Beynəlxalq düzəndəki qarşıqlıq İsraillə Fələstin arasındakı münaqişənin həlli üçün səylərin artırılmasını labüdləşdirir. ABŞ Yaxın Şərqdəki təsirlərinin əbədi qalmayacağından qorxu keçirdiyi üçün regionun iki əzəli rəqibini barışdırmaq istəyir".***

"Unikal" xəbər verir ki, bu fikirləri siyasi şərhçi Aqşin Kərimov səsləndirib. O bildirib ki, İsrail Fələstin probleminin öz şərtləri əsasında nizama qoyulmasını tezləşdirmək niyyəti ilə digər regionlar üzərindəki siyasəti arasında paralellər aparır. Onun fikrincə, buu paralellər ABŞ-nin də maraqları ilə üzləşdirilməlidir: "ABŞ Dövlət katibi Antoni Blinkenin İsrailə, daha sonra isə Fələstinə səfəri Vaşinqtonun nizamlama prosesində önə çıxmaq planlarından xəbər verir. İsrailin "ərəb açılımı"nı, "İbrahimi razılaşması"nı həyata keçirmək xətti ABŞ ilə Türkiyənin siyasəti ilə uyuşur. İsrail "ərəb doktrinası"nın icrasını Fələstin probleminin həllinə aparan marşrut kimi görür. İsrail Yaxın Şərq siyasətinin damarını tutan Türkiyə ilə mübahisəli məqamlara aydınlıq gətirməlidir, ən çox da iki ölkə Fələstin mövzusunda ortaq zolağa yaxınlaşmaqda çətinlik çəkir".

Siyasi şərhçi onu da qeyd edib ki, Türkiyənin Suriya cəbhəsində, Cənubi Qafqazın Qarabağ cinahında Rusiya ilə dil tapmaq təcrübəsi onların Yaxın Şərq regionundakı müştərək maraqlarına təsir edir:

"Böyük ehtimal ki, Blinkenin səfərindəki əsas motiv Rusiyaya qarşı ölçülər götürməkdə İsraillə anlaşmaq idi. Ancaq Ağ Ev Rusiya təsirlərini minimallaşdırmaqdan ötrü İsraili nəyəsə inandırmalıdır. Hesablamaq çətin deyil ki, İsrail Rusiyanın artan maraqlarını zəifl ətmək siyasətində üzərinə öhdəlik götürəcəyi təqdirdə, ABŞ-nin qarşısına şərt qoyacaq.Bu şərt İrana qarşı güc tətbiqindəki fikir ayrılıqlarının aradan qalxması və vahid siyasətin bərqərar olması ilə əlaqədardır. İsrailin müdafiə naziri Yoav Qallant Blinkenlə görüşdən istifadə edərək İranın nüvə təhdidlərinə qarşı ABŞ-nin vahid siyasət aparacağına ümid etdiyini deyib. Bu, yuxarıdakı fikri təsdiqləyə biləcək bir açıqlamadır. Əks təqdirdə İsrail Fələstin münaqişəsinin ABŞ-nin əlində olan açarlarını da ala bilər və iki ölkənin müttəfiqliyi zəifləyər. Ancaq ABŞ ilə İsrailin arasında hər nə qədər problem olsa da, bu, onların münasibətlərinin köklərini dağıda bilmək potensialına qalxa bilməz".

A.Kərimov onu da vurğulayıb ki, iki ölkə Fələstin münaqişəsinin həllində, İrana zərbələr endirmək məsələsində, Rusiya-Ukrayna müharibəsinə münasibətdə fikir ayrılıqları yaşasa da, onların təməl xətti dəyişmir: "İsrail üçün Ukraynadakı müharibə və onun nəticələri çətin sınaq deyil. Yəhudi dövlətinin ən böyük arzusu ABŞ-ni İranın ambisiyalarına müqavimət göstərmək üçün daha güclü mövqeyə qoymaqdır. İran mövzusunda ortaq fikirlər mübahisələrdən çoxdur, lakin son an, yəni İranın nüvə obyektlərinə zərbələr endirmək məsələsi ABŞ ilə İsraili fərqli mövqelərə gətirib çıxarır.ABŞ dəfələrlə İsraili İrana zərbələr endirməkdən çəkindirə bilib, hərçənd ki, indi Baş nazir Benyamin Netanyahu İslam Respublikasına qarşı daha həlledici qərarlar verir. İsrail İranı bombardman etmək üçün planlarını Vaşinqtonun saatı ilə tutuşdurmaqdan qaçmaqda maraqlı görünür. Vaşinqtonla Təl-Əvivin meyarlarındakı oxşarlıqlar və fərqliliklər İran kontekstinin Cənubi Qafqazdakı izlərini pozmaq üçün də fürsətlər verir. ABŞ ilə İsrailin İrana qarşı əlinə düşə biləcək hərbi fürsətlər Cənubi Qafqaz regionunu da həssaslaşdırır.

Azərbaycan və Türkiyə Cənubi Qafqazda kövrək bünövrə üzərində dayanan sütunların İrana qarşı oxda laxlamamasına çalışır. Buna görə də Azərbaycanla Türkiyə Rusiya, ABŞ, İsrail və Böyük Britaniya kimi oyunçuların maraqlarını öz strateji müttəfiqlik əlaqələrinin konyunkturuna gətirməyin faydalarını hesablayırlar".

Dövlət Dəniz və Liman Agentliyində görüş keçirildi

Dövlət Dəniz və Liman Agentliyinin İdarə Heyətinin sədri Arif Məmmədov Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyinin Nəqliyyat Komitəsinin əməkdaşları, həmçinin dəniz üzgüçülüyünün təhlükəsizliyi üzrə məsul qurum olan "Qazaxıstan su yolları" dövlət müəssisəsinin rəhbərliyi ilə görüşüb.

"Unikal" xəbər verir ki, görüş zamanı son illər iki ölkə arasındakı münasibətlərin yüksələn xətlə inkişafı, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlıq və dəniz nəqliyyatı sahəsində qarşılıqlı maraq doğuran məsələlər haqqında danışılıb. Gələcəkdə sözügedən marşrut üzrə atıla biləcək addımlar barədə müzakirələr aparılıb.



## "Şərurlu İsfəndiyar"a məxsus binada lift qəzalı vəziyyətdə imiş

***"Şərur" MTK-ya məxsus binada liftin fəaliyyəti məhdudlaşdırılıb.***

Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, FHN-in "112" qaynar telefon xəttinə paytaxtın Nərimanov rayonu, Bakıxanov küçəsi, 66 ünvanında yerləşən "Şərur" MTK-ya məxsus çoxmərtəbəli yaşayış binasında liftin qəzalı vəziyyətdə istismar olunması barədə vətəndaş tərəfindən müraciət daxil olub.

Müraciətlə əlaqədar dərhal FHN Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin müfəttişləri tərəfindən həmin binadakı liftə texniki baxış keçirilib. Baxış zamanı həqiqətən də liftin müvafiq təhlükəsizlik tələblərinə riayət olunmadan istismar edildiyi və insan həyatı və sağlamlığı üçün təhlükə yaratdığı müəyyən olunub.

Qeyd olunanlar nəzərə alınaraq, liftin istismarı dayandırılıb və aşkar edilmiş texniki təhlükəsizliklə bağlı pozuntuların aradan qaldırılması üçün "Şərur" MTK qarşısında məsələ qaldırılıb. Həmçinin, müvafiq akt tərtib edilərək, yalnız qayda pozuntularının aradan qaldırılacağı təqdirdə liftin istismarının mümkün olacağı və liftin müvafiq normalara riayət olunmadan istismarı zamanı baş verə biləcək qəza və bədbəxt hadisəyə görə məsuliyyət daşıdıqları sözügedən MTK-nın rəhbərliyinə izah olunub.

Qeyd edək ki, "Şərur" MTK "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundova məxsusdur.

## İstilik və isti su sayğaclarının quraşdırılmasına başlanılıb




***"Azəristiliktəchizat" ASC istehsal və əməliyyat səmərəliyini artırmaq, uçot sistemini təkmilləşdirmək, həmçinin istilik enerjisindən səmərəli istifadəni stimullaşdırmaq və fəaliyyətini müasirləşdirmək məqsədilə istilik və isti su sayğaclarının quraşdırılması işlərinə başlamışdır.***

Bu barədə "Unikal"a qurumdan məlumat verilib. Bu məqsədlə ilkin olaraq 60 istilik sayğacının satınalınması prosesi yekunlaşdırılmış və pilot layihə çərçivəsində qeyri-əhali abonentləri üçün quraşdırılması təmin ediləcəkdir. Layihə nəticəsində istilik və isti su məqsədləri üçün istilik enerjisinin istehsalının və çatdırılmasının resurs və maliyyə tələbi daha dəqiq müəyyən olunacaq, xidmət keyfiyyətinin yüksəldilməsi, istehsal prosesinin daha səmərəli təşkili təmin edilməklə, istehlakçı məmnunluğunun artırılması üçün əsaslı zəmin yaradılması mümkün olacaqdır.

Bundan başqa, isti su təchizatının sayğaclaşdırılması ilə bağlı əlavə tədbirlər görülməkdədir və mövcud isti su sayğaclarının yenilənməsi üçün Azərbaycanda yeganə yerli sayğac istehsalçısı olan "Gəncə Cihazqayırma zavodu" ASC ilə qanunvericiliyə uyğun olaraq 3500 ədəd isti su sayğacının alınmasına dair müqavilə imzalanıb və artıq sayğacların yenilənməsi işlərinə başlanmışdır.

Hazırda istilik sayğacları quraşdırılmadığı hallarda istilik təchizatı xidmətləri əhali istehlakçıları üçün mənzilin 1 kvadrat metr yaşayış sahəsinə görə, qeyri əhali istehlakçıları üçün binanın 1 kub metr tikinti həcminə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 24 noyabr 2011-ci il tarixli 04 nömrəli qərarına əsasən müəyyən etdiyi tariflərlə hesablanır.

# Süni intellekt diplom işi yazdı və... - İlham Əhmədov

***Rusiya Federasiyası Dövlət Duması ölkə universitetlərindən birində tələbəsinin neyron şəbəkədən istifadə edərək yazdığı diplom işinin universitet rəhbərliyi tərəfindən ləğv edilməsi məsələsinə reaksiya verib. Dövlət Dumasının Elm və Ali Təhsil Komitəsi sədrinin birinci müavini Aleksandr Majuqa bildirib ki, universitet rəhbərliyi neyroşəbəkə (süni intellekt) vasitəsi ilə yazılmış diplom işini ləğv etməməlidir.***



Bu siruasiyada tələbə təbii ki, düzgün hərəkət etməyib, amma onun bu təcrübəsi elm-təhsil ictimaiyyəti üçün ciddi siqnal, xəbərdarlıq olmalıdır.

Diplom işi universitet tərəfindən "kafi" olaraq qiymətləndirilib. Məlum olub ki, süni intellekt əla reytinqə layiq elmi iş yazmağa hələ hazır deyil. Bu situasiyada müəllim tədqiqat işini daha diqqətlə nəzərdən keçirməli idi. Onun vəzifəsi tədqiqat mövzunu formalaşdırmaq və hər mərhələdə onun icrasına ciddi nəzarət etmək idi.

Müəllim bu işi nəzərdən qaçırıbsa, işin süni intellekt tərəfindən yazılmasını tuta bilməyibsə, deməli, həqiqətən də bu işdə nə isə müsbət, maraqlı məqam olub, bu səbəbdən də o, qiymət ala bilib. Bu, pedaqoji ictimaiyyət üçün bir təcrübədir, gələcəkdə belə halların qarşısını almaq üçün indidən müəyyən tədbirlər görülməlidir. Belə hallar gələcəkdə başqa ölkələrdə, o cümlədən bizdə də ola bilər. Tələbələrin tədqiqat işlərinin yazılması prosesində elmi rəhbərlər diqqətli olmalıdırlar.

Qeyd edək ki, süni intellekt əvvəllər də elmi jurnallarda dərc olunan və konfrans çıxışlarında istifadə olunan elmi məqalələr yazıb. Bu halda isə tələbə süni intellektin başqa bir imkanını göstərə bilib. Yəni, tələbə tədqiqat işi yazarkən süni intellektin imkanlarını göstərən yaxşı elmi eksperiment aparıb.

Hər bir tələbə öz diplom işində onun mövcud məlumatları təhlil etmək, məntiqi nəticələr çıxarmaq, ədəbiyyatla işləmək, elmi araşdırmalar aparmaq, nəticə göstərmək, bu barədə danışmaq, yazmaq bacarığını əyani göstərməlidir. Bu halda təbii ki, tədqiqat işini yazan tələbə özü deyildi. Bunu onun əvəzinə süni intellekt edib.

Prosesin necə baş verdiyinə diqqət etsək, görərik ki, tələbənin bu işdə müəyyən xidmətləri olub. O tapşırığı tərtib edib, işin hansı bölmələrində hansı mətnlərin olmasını, bu mətnlərin hansı məzmunda verilməsini sistemin anlayacağı formada qeyd edib. Daha sonra süni intellekt ədəbiyyatı axtarıb, təhlil edib və bunun əsasında orijinal mətnlər hazırlayıb.

Biz yeni texnologiyalar əsrində yaşayırıq. Bu gün həqiqətən də belə nəticələr verə biləcək texnologiyalar var. Amma çox vaxt ayrı-ayrı tələbələr müəllimlərindən, hətta bəzən universitetdən daha "uzaqgörən" olur, onları aldatmağa müvəffəq olur. Təbii ki, müəyyən vaxtdan sonra həqiqət üzə çıxır. Sadəcə, universitetlər, fənn müəllimləri belə faktlara diqqət yetirməli və şagirdlərlə daha fəal işləməlidirlər.

Bəs bu "cinayət" necə açılıb? Tələbə bu barədə sosial şəbəkədə danışıb. Yazıb ki, bütün işi tamamlamaq üçün mənə 23 saat lazım olub və əsərin orijinallığı 82% təşkil edib (antiplagiat yoxlaması nəticəsində). Bu etirafdan sonra sosial şəbəkə istifadəçilərindən bəziləri universitet rəhbərliyinə bu barədə məlumat verib və nəticənin ləğv edilməsini xahiş ediblər.

Dövlət Dumasının rəsmilərinin məsələyə qarışması, tələbəni xilas edib. Çünki, bu, həm də universitetlərə bir təcrübə, dərs oldu... (Bakıvaxtı)

# BQXK-nın avtomobillərində ermənıəsilli şəxslər aparıldı

***Şuşadan keçən Xankəndi-Laçın yolunda Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus 7 avtomobilin hərəkət etməsinə şərait yaradılıb.***



"Unikal" xəbər verir ki, nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, 6 minik və 1 yük avtomobili Xankəndidən Laçın istiqamətinə keçid edib. Avtomobillərin içərisində erməniəsilli şəxslər olub.

Bu, bir daha göstərir ki, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyət yoxdur.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 53 gündür davam edir.

Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

# Bir ayda 33 nəfər sərhədi pozdu

***Dövlət Sərhəd Xidməti (DSX) bu ilin yanvar ayı ərzində dövlət sərhədini pozduqlarına görə 33 nəferi saxlayıb.***

Bu barədə "Unikal"a DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib.

Qeyd olunub ki, saxlanılanlardan 19 nəfəri Azərbaycan, 8 Pakistan, 1 Nigeriya, 2 Misir, 1 Gürcüstan və 2 İran vətəndaşları olub. Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 16 nəfər saxtalaşdırılmış pasport, viza və tarix möhürləri ilə dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıb.



Sərhəd rejim qaydalarını pozduqlarına görə 1 055 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 247 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olan 234 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 16 nəfərin Azərbaycana daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 154 kq 700 qram narkotik vasitə və 9490 ədəd psixotrop həb qanunsuz dövriyyədən çıxarılıb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri 1 milyon 790 min 484 manat olan qaçaqmal, o cümlədən tütün məmulatları və spirtli içkilər saxlanılıb.

# Dövlət qulluğunun inkişafına dair strategiyanın Fəaliyyət Planı müzakirə edilib

***Dövlət İmtahan Mərkəzinin "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın müzakirəsi keçirilib.***

Müzakirə dövlət orqanlarının kadr qurumlarının dövlət qulluğu sahəsində həyata keçirilən institusional islahatlarda fəal iştirakının təmin edilməsi, dövlət orqanları ilə Mərkəz arasında əməkdaşlığın və təcrübə mübadiləsinin artırılması, habelə Fəaliyyət Planında müəyyən edilmiş tədbirlərin icra vəziyyətinin, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi zamanı yaranan çətinliklər və onların həlli yollarının müzakirə edilməsi məqsədilə təşkil edilib.

Tədbirdə 35 dövlət orqanından 40-dan çox nümayəndə, beynəlxalq ekspertlər və Mərkəzin dövlət qulluğu sahəsində fəaliyyət göstərən struktur bölmələrinin əməkdaşları iştirak ediblər.

DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Azərbaycanda dövlət qulluğu sahəsində aparılan islahatlar və tətbiq edilən yeniliklər, dövlət qulluğunun inkişaf istiqamətləri və prinsipləri, "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya'nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı çərçivəsində həyata keçirilmiş tədbirlər, habelə Strategiyanın 2023-2025-ci illər üzrə Fəaliyyət Planının icra vəziyyəti barədə iştirakçılara məlumat verib.

Daha sonra DİM-in əməkdaşları və beynəlxalq ekspertlər tərəfindən dövlət qulluğu sahəsin-




də təqdimatlar edilib.

Tədbirin sonunda dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, dövlət qulluğunda səriştə modeli, dövlət qulluğu vəzifələrinin qruplaşdırılması və vəzifə profillərinin hazırlanması, dövlət qulluqçuları üçün təlimlərin təşkili ilə bağlı müzakirələr edilib, eyni zamanda dövlət orqanı nümayəndələrinin sualları cavablandırılıb.

# Rayonlarda kanallar beton üzlüyə alınır

***Biləsuvar, Ağdaş və Goranboyda torpaq kanallar beton üzlüyə alınır. Su itkisi minimuma endirilir.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov "Unikal"a bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi tərəfindən Biləsuvar rayonunda torpaq məcralı kanal beton üzlüyə alınır. Cənubi Muğan Kanalından ayrılan bir-neçə qoldan biri olan R-1 kanalında işlər sürətlə həyata keçirilir. Kanalın 2021-ci ildə 200 metr hissəsi beton üzlüyə alınıb. 2022-ci ildə isə 600 metrdən artıq hissəsinin betonlaşması nəzərdə tutulub və işlər bu il də davam edir. R-1 kanalı Biləsuvar rayonunda



torpaq sahələrinin suvarılmasında önəmli yerə malik olan kanaldır. Su götürmə qabiliyyəti isə saniyədə 7-7.5 kub metrdir.

Bundan başqa idarə Goranboy rayonunda yerləşən və uzun illər torpaq məcralı kanal kimi istifadə olunmuş Xanarx kanalında da beton işləri aparır. Kanal başlanğıcını Suqovuşan Su Anbarından götürür. Aparılan tədbirlər zamanı rayon üçün suvarmada xüsusi rolu olan kanalın sağ və sol sahilinə beton üzlük çəkilir. 30 il istifadəsiz qalan kanal vasitəsilə 6300 hektar əkin sahəsi asanlıqla suvarıla biləcək.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi tərəfindən Ağdaş rayonu ərazisində yerləşən R-2 torpaq məcralı kanal beton üzlüyə alaraq fermerlərin istifadəsinə verilib. Kanal Qəribli, Yenikənd və Aşağı Nemətabad kəndlərinə xidmət edir.

Qeyd edək ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi Göygöl, Goranboy, Biləsuvar və Ağdaş rayonlarında meliorativ tədbirlərini davam etdirir.

***Hüseyn***

# Marketdən oğurluq edən şəxs polisə bıçaqla müqavimət göstərib

***Paytaxtın Xətai rayonunda yerləşən marketlərdən birindən oğurluq edilməsinin qarşısı mühafizə polisləri tərəfindən alınıb.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, rayon ərazisində yerləşən xüsusi texniki vasitələrlə qorunan obyektdən Baş Mühafizə İdarəsinin Kompüterləşdirilmiş Mərkəzi Mühafizə Məntəqəsinə "həyəcan" siqnalı daxil olub. Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən hadisəyə dərhal operativ reaksiya göstərilib.

Əraziyə gələn polislər obyektə baxış keçirən zaman bir nəfərin mağazanın arxa tərəfində yerləşən ehtiyat çıxışından ora daxil olduğunun şahidi olublar. Polislərin operativliyi sayəsində hadisəni törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum edilmiş Elvin Quliyev saxlanılaraq ərazi üzrə Polis Bölməsinə təhvil verilib.

Həmin şəxs tutulan zaman əlində olan bıçaqla müqavimət göstərmək istəsə də, onun bu niyyətinin qarşısı polis əməkdaşlarının çevikliyi nəticəsində alınıb. Saxlanılan şəxsin üzərində axtarış aparılan zaman marketdən oğurladığı 1700 manat aşkar olunub.

Elvin Quliyevin oğurluq niyyəti ilə obyektə daxil olması mağazanın təhlükəsizlik kameraları vasitə ilə də anbaan lentə alınıb. Saxlanılan şəxsin Xətai və paytaxtın digər ərazilərində analoji cinayətlərdə əlinin olub-olmamasının müəyyən edilməsi istiqamətində araşdırmalar davam etdiriiir.

# Ağdaş rayonunun ötənilki sosial-iqtisadi inkişafının statistik göstəriciləri




***2022-ci ildə rayonda iqtisadiyyatın əsas sahələri üzrə 463 milyon 793,9 min manatlıq məhsul və xidmətlər istehsal olunub. Bu göstərici əvvəlki illə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 3,4 faiz və ya 13 milyon 281,8 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən qiymət indeksi nəzərə alınmaqla ümumi məhsul buraxılışı nəqliyyat və anbar təsərrüfatı sahəsində 30,8 faiz və ya 1 milyon 589,2 min manat, sənaye məhsulu istehsalı sahəsində 7,4 faiz və ya 5 milyon 847,2 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 5,8 faiz və ya 9 milyon 668,0 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində isə 0,2 faiz və ya 250,0 min manat artıb.

Məhsul və xidmətlərin 67,4 faizi istehsal sahələrinin, 32,6 faizi isə xidmət sahələrinin payına düşüb.

Ümumi məhsul buraxılışının 44,2 faizi kənd təsərrüfatı, 30,9 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 21,1 faizi sənaye, 2,2 faizi tikinti, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranıb.

Sənaye. 2022-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 97 milyon 846,1 min manatlıq və ya əvvəlki illə müqayisədə 7,4 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. 2022-ci ildə sənaye məhsullarının 89,6 faizi emal, 8,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Tikinti. 2022-ci ildə müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 17 milyon 340,3 min manat və ya əvvəlki illə müqayisədə 12,7 faiz çox vəsait yönəldilmişdir. 2022-ci ildə əsas kapitala yönəldilmiş vəsaitlərin 10 milyon 100,5 min manatı və ya 58,2 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 1 milyon 10,5 min manatı və ya 10,0 faizi dövlət, 9 milyon 90,0 min manatı və ya 90,0 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşüb.

Ticarət. 2022-ci ildə ticarət şəbəkələrində əhaliyə faktiki qiymətlərlə 448 milyon 78,3 min manatlıq istehlak malları satılıb. Bu dövrdə qiymət indeksi nəzərə alınmaqla 2021-ci illə müqayisədə 0,2 faiz və ya 781,2 min manat çox istehlak malları satılıb.

***Ağdaş Rayon Statistika İdarəsi***



## Maya Sandudan Saakaşvili ilə bağlı çağırış

***Moldova Prezidenti Maya Sandu Gürcüstanın eks-prezidenti Mixeil Saakaşvilinin azad olunması ilə bağlı çağırış edib.***

"Unikal" xəbər verir ki, bu barədə Maya Sandu "Twitter"də paylaşım edib.

"Mixail Saakaşvilinin kritik fiziki vəziyyəti son dərəcə narahatedicidir. Müxalifət liderinin işgəncə ilə öldürülməsi Avropa İttifaqına üzv olmaq istəyən bir ölkə üçün qəbuledilməzdir. Saakaşvili dərhal azad edilməli və müalicə üçün xaricə göndərilməlidir", - Sandu qeyd edib.

## Bolqarıstan prezidenti parlamenti buraxdı

***Bolqarıstan Prezidenti Rumen Radev ölkə parlamentini buraxıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, ölkə lideri texniki hökumət təyin edilməsi haqqında qərar verib.

Qeyd edilib ki, texniki hökumətə ölkənin Baş naziri Qılıb Donev başçılıq edəcək.

Ötən ilin avqust ayında da Bolqarıstan parlamenti buraxılmışdı.

***Ağarza***

## Ukraynalı əsgərlər hərbi təlim üçün Almaniyaya getdilər

***70 nəfər Ukrayna hərbçisi "Patriot" zenit-raket kompleksi ilə işləmək üzrə təlim keçmək üçün Almaniyaya gedib.***

"Unikal" xəbər verir ki, bu barədə "Spiegel" nəşri məlumat dərc edib.

Məlumata görə, ukraynalı hərbçilər bu gündən təlimlərə başlayıblar.

***Ağarza***

## Avstriya 4 rus diplomatını ölkədən çıxarır

***Avstriya dörd rus diplomatını persona non-qrata elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Avstriya Xarici İşlər Nazirliyi açıqlayıb.

Onlar fevralın 8-dən gec olmayaraq ölkəni tərk etməlidirlər.

"Rusiya səfirliyinin iki diplomatı diplomatik statusları ilə bir araya sığmayan hərəkətlər edib", - məlumatda deyilir. Rusiyanın BMT-dəki Daimi Nümayəndəliyindən daha iki rusiyalı da eyni mövzu ilə ittihamla ittiham olunur.

**ELAN**

**Səfərov Natiq Ədalət oğluna məxsus DI 004020 nömrəli Ukrayna Mülki Müdafiyə Universitetinin diplomun qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.**

**Nəsimi rayon Yeni Azərbaycan Partiyası tərəfinən 2001 il oktyabr ayında verilmiş Axundova Nuranə Rafiq qizina 175828 nömrəli vəsiqə itdiyinə görə etibarsız sayılır.**

# Ərdoğan ikinci TOGG-un İlham Əliyevə veriləcəyini açıqladı

***"Türkiyə istehsalı olan TOGG elektromobilinin ikinci seriya nüsxəsi Azərbaycan dövlətinin başçısı İlham Əliyevə təhvil veriləcək".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan TRT telekanalına müsahibəsində deyib.

TOGG-nin ilk seriya nüsxəsinin Türkiyə prezidentinə təhvil veriləcəyi bildirilir.

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan 2022-ci il oktyabrın 29-da ölkənin qərbində Bursa vilayətində (Gemlik rayonu) zavodda ilk türk elektromobilinin konveyerdən buraxılması mərasimində iştirak edib.TOGG elektrik avtomobili 2019-cu ildə təqdim edilib. Ən populyar yolsuzluq avtomobili seqmentinin krossover prototipinin seriyalı sınaqları 2021-ci ilin noyabrında baş tutub, o, 100 km/saata 4,8 saniyəyə sürətlənib. İstehsalçıların fikrincə, elektromobilin 80% enerji ilə doldurulması 30 dəqiqə çəkəcək, məsafə 500 km olacaq.



# Filip Rikerin yerinə o təyin edildi

***ABŞ dövlət katibi Entoni Blinken Qafqaz danışıqları üzrə yeni baş müşavir təyin edib.***

"Unikal" xəbər verir ki, bundan sonra bu vəzifəni Louis L. Bono icra edəcək.

"Bono Ermənistan və Azərbaycan arasında sülh prosesini irəlilətmək və Rusiyanın Gürcüstanın suveren ərazilərini işğal etməsinə cavab vermək üçün regional liderlərlə işləyəcək", - Blinken bildirib. Dövlət katibi vurğulayıb ki, Birləşmiş Ştatlar Ermənistan və Azərbaycan arasında hərtərəfli sülh müqaviləsinin bağlanmasına, o cümlədən Qarabağ münaqişəsinin uzunmüddətli siyasi həllinə yönəlmiş danışıqları dəstəkləmək öhdəliyinə sadiqdir.

Bundan əvvəl Qafqaz üzrə dövlət katibinin baş Filip Riker idi.

***Ağarza Elçinoğlu***



# İsrail Ordusundan antiterror əməliyyatı: 17 terrorçu saxlanıldı

***İsrail təhlükəsizlik qüvvələri İordan çayının qərb sahilində gecə reydləri zamanı terror fəaliyyətində iştirakda şübhəli bilinən 17 fələstinlini saxlayıb.***

Bu barədə İsrail Ordusunun mətbuat xidməti məlumat yayıb. Qeyd olunub ki, İsrail Müdafiə Qüvvələri, Baş Təhlükəsizlik Xidməti və Sərhəd Polisi bu gecə İudeya və Samariyada axtarışda olan 17 şübhəlini həbs etmək üçün tədbirlər həyata keçirib. Hebron, Nablus və Qalkilya şəhərlərində, eləcə də İordan çayının qərb sahilində bir sıra kənd və qəsəbələrdə reydlər keçirilib, bəzi bölgələrdə atəş səsləri eşidilib, qarşıdurma baş verib. Cenin şəhəri yaxınlığında naməlum şəxslər gecə saatlarında İsrail ordusunun postunu atəşə tutublar. Hərbçilər arasında xəsarət alanlar yoxdur.



# "İsrail buna görə məsuliyyət daşıyır" - İran rəsmisi

***"İsrail İranın müdafiə obyektinə hücuma görə məsuliyyət daşıyır".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu İranın BMT-dəki daimi nümayəndəsi Amid Səid İrəvani deyib.

"İlkin araşdırmanın nəticələri göstərir ki, sionist rejim İsfahan şəhərində Müdafiə Nazirliyinin obyektinə edilən terror hücumuna görə məsuliyyət daşıyır, bu rejimin hərəkətləri beynəlxalq hüququ pozur və pislənir", - deyə İrəvani vurğulayıb.

Qeyd edək ki, yanvarın 29-na keçən gecə İranın mərkəzi hissəsində yerləşən İsfahan şəhərində güclü partlayış baş verib. Daha sonra ölkənin Müdafiə Nazirliyi bəyan edib ki, dronlardan istifadə etməklə idarənin mərkəzlərindən birinə uğursuz hücum edilib.



# "Döyüş meydanında qələbə olmalıdır" - Lavrov

***"Rusiyada hamı Ukraynadakı vəziyyətin bitməsini istəyir, amma bizim üçün vacib olan Rusiya xalqı üçün nəticələrin keyfiyyətidir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov deyib.

Onun sözlərinə görə, rusiyalı hərbçilər öz işini necə yerinə yetirməyi və itkiləri minimuma endirməyi düşünməlidirlər.

"İndi biz Ukraynanın artilleriyasını hərəkətə keçirməyə çalışırıq ki, sərhədlərimizə təhlükə olmasın, amma Qərb uzaqmənzilli silahlar tədarük etməyə hazırlaşır, bu o deməkdir ki, biz irəli getməliyik. Olaf Şolts ( red. - Almaniya kansleri) Ukraynaya təyyarə göndərməyəcəyinə söz verdi, amma onun mövqeyini necə tez dəyişdiyini bilirik", - deyə o vurğulayıb.

***Gülayə Mecid***

# Gənclər Günü ilə əlaqədar "Formula 1" endirimli biletləri satışa çıxarılır



***Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) 2 fevral - Gənclər Günü ilə əlaqədar "Formula 1" üzrə Azərbaycan Qran-prisi üçün endirimli biletləri satışa çıxarır.***

BŞH-dan "Unikal"a verilən məlumata görə, bu il daha çox yerli gəncin yarış həyəcanını yaxından yaşaması üçün keçirilən kampaniya çərçivəsində tribuna biletləri 50% endirimlə təklif olunur. Bu, yalnız tələbələr üçün nəzərdə tutulub və biletlər məhdud saydadır. Bundan başqa, sözügedən kampaniya Azərbaycan vətəndaşlığına və ya rezident statusuna sahib tələbələrə şamil olunur. Onlar tələbə kartını təqdim edərək bu endirimdən yararlana bilərlər. Endirimli biletləri yalnız aşağıdakı satış məntəqələrindən hərəyə 1 ədəd olmaqla əldə etmək olar:

**"28 Mall" Ticarət Mərkəzi**
**"Gənclik Mall" Ticarət Mərkəzi**
**Heydər Əliyev Sarayı**

Köşk №1 (M.Rəsulzadə 3)
Köşk №2 (Bül-bül prospekti, Nizami küç.)
1 saylı "ASAN xidmət" mərkəzi
2 saylı "ASAN xidmət" mərkəzi
3 saylı "ASAN xidmət" mərkəzi
4 saylı "ASAN xidmət" mərkəzi
Sumqayıt "ASAN xidmət" mərkəzi

Endirim kampaniyası fevralın 5-dək davam edəcək.

Qeyd edək ki, Azərbaycan Qran-prisi 28-30 apreldə baş tutacaq və Bakı ilk dəfə sprint yarışına ev sahibliyi edəcək.

# "Qarabağ" yeni futbolçu ilə razılaşıbmı? - Açıqlama

***"Qarabağ" transfer pəncərəsinin bağlanmasına bir neçə saat qalmış yeni futbolçu almaq üçün danışıqları davam etdirir.***

Bu barədə Qol.az saytına açıqlamasında klubun mətbuat xidmətinin rəhbəri Gündüz Abbaszadə bildirib. O, son anadək futbolçularla danışıqlar aparacaqlarını, lakin hazırda heç bir oyunçu ilə razılaşmadıqlarını deyib:



"Transfer üçün son anadək danışıqlarımız davam edəcək. Ancaq hazırda keç kimlə razılıq əldə olunmayıb. Bu gün saat 21:00-adək vaxtımız var. Daha sonra isə Konfrans Liqasının pley-off mərhələsində "Gent"lə oyunlar üçün iştirak ərizəsini UEFA-ya təqdim etməliyik".

Qeyd edək ki, daha əvvəl komandanın baş məşqçisi Qurban Qurbanov yeni qapıçı transfer etməyə çalışdıqlarını, fevralın 2-dək danışıqlar aparacaqlarını bildirmişdi. Ağdam təmsilçisi bu qış transfer pəncərəsində heyətinə üç futbolçu qatıb. "Qarabağ" Redon Cica, Adama Diakabi və Yassin Benziani sıralarına cəlb edib.

# "Zirə" nigeriyalı yarımmüdafiəçi transfer edir

***"Zirə" Portuqaliya "Pakuş de Ferreyra"sının futbolçusu Abbas İbrahimi transferini rəsmiləşdirməyə yaxındır.***



Qol.az "Ojogo"ya istinadən xəbər verir ki, nigeriyalı yarımmüdafiəçi Portuqaliya klubunda daha az oynadığı üçün özü Bakı təmsilçisinə keçməkdə maraqlı olub. Klub onun istəyini qəbul edib. Razılığa əsasən, futbolçunun transfer hüququnun bir hissəsi "Pakuş de Ferreyra"da olacaq.

Onun yaxın vaxtlarda yeni klubu ilə müqavilə imzalayacağı bildirilib.

# "Qarabağ" 300-ə çatdı

***Misli Premyer Liqasının 20-ci turunda iki futbolçu "Qarabağ"da debüt edib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, bununla da Ağdam klubunun heyətində Azərbaycan çempionatında oynamış futbolçuların sayı "300"ü keçib.

"Şamaxı" ilə ev görüşünədək (3:1) 299 oyunçu "Qarabağ"ın heyətində meydana çıxmışdı. "Azersun Arena"dakı qarşılaşmada debüt edən Adama Diakabi və Redon Cica bu rəqəmi 301-ə çatdırıb. Hər iki legioner eyni vaxtda əvəzetmədən oyuna daxil olub.

Qeyd edək ki, "Qarabağ" ölkə çempionatında formasını geyinənlərin sayında 300-ü keçən 4-cü komandadır. Bunadək yalnız "Neftçi", "Kəpəz" və "Şamaxı"da bu rəqəm daha yüksəkdir.

# "Çelsi" Potterlə bağlı qərarını verdi

***"Çelsi" yaxın gələcəkdə uğursuzluqla üzləşəcəyi təqdirdə baş məşqçi Qrem Potteri istefaya göndərməyəcək.***



Qol.az xəbər verir ki, bu barədə "The Guardian" məlumat yayıb. Klub sahibləri əhəmiyyətli transfer xərclərinə baxmayaraq, dərhal uğur tələb etmək fikrində deyillər. Onlar 47 yaşlı mütəxəssisə komanda qurmaq üçün vaxt verəcəklər.

Son iki transfer pəncərəsi ərzində London təmsilçisi on altı futbolçu alıb və daha iki futbolçunu icarəyə götürüb. Premyer Liqa klubu bu qış transferlərə 323 milyon funt-sterlinq xərcləyib. Amma rəhbərlik komandanın cari mövsümün sonunda Çempionlar Liqasına vəsiqə qazanmamasına da hazırdır. Bu, Potterə 2023-cü ilin yayında mövsümöncəsi hazırlıq üçün imkanı yaradacaq.

Qeyd edək ki, "Çelsi" hazırda Premyer Liqada 29 xalla 10-cudur. Reqlamentə əsasən, komanda ÇL-ə vəsiqə qazanmaq üçün mövsümün sonunda ilk 4 yerdən birində qərarlaşmalıdır.

# U-21 millimizin Avro-2025-dəki rəqibləri



***Azərbaycanın U-21 millisinin Avro-2025-in seçmə mərhələsindəki rəqibləri müəyyənləşib.***

Püşkatmanın nəticələrinə əsasən, yığmamız F qrupunda yer alıb. Samir Əliyevin baş məşqçi olduğu komanda bu mərhələdə Lüksemburq, Şimali İrlandiya, Serbiya, Ukrayna və İngiltərə yığması ilə mübarizə aparacaq.

Qeyd edək ki, Avro-2025-in final mərhələsi Slovakiyada keçiriləcək.

# "Mançester Yunayted" Liqa Kubokunda 2-ci finalçı oldu

***İngiltərə Liqa Kubokunun ikinci finalçısı "Mançester Yunayted" olub.***

Səfərdə 3:0 məğlub etdiyi "Notinqem Forest"i Mançester təmsilçisi bu dəfə 2:0 yenib.

Bununla da fevralın 26-da Liqa Kubokunun finalında "Nyukasl" və "Mançester Yunayted" qarşılaşacaq.

# Azərbaycan güləşçisi qızıl medal qazandı

***Azərbaycanın sərbəst güləşçisi Əliabbas Rzazadə Xorvatiyada keçirilən "Zaqreb Open"də qızıl medal qazanıb.***

"Unikal" xəbər verir ki, 57 kq-da çıxış edən idmançı finalda yaponiyalı Yuto Nişuçi ilə qarşılaşıb. Rəqibinə 2:0 hesabı ilə qalib gələn Rzazadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.